AFAQ ŞIXLI

YEDDİDƏN 1-İ

Bədii tərcümələr

2014

MÜƏLLIFDƏN

“Tərcümə nədir? Tərcümə - əsərin bir insan kimi, müxtəlif dillərdə danışması, özünü sevdirə bilmə şansıdır!

Tərcümə etməyi çox sevirəm, çünki bu iş məsuliiyyət və diqqət tələb edir. Səfərbərlik və məhəbbət tələb edir.

Tərçüməçi hər dəfə özü üçün sanki yeni bir dünya kəşf edir. Müəllifdən müəllifə duyğuların, hisslərin dəyişir. Dünyaya baxışın dəyişir. Anna Axmatovanın sevgi şeirlərini tərcümə etdikcə, elə bilirəm ki, 100 il öncə o, məni yazırmış...

Sayca yeddinci olduğundan, “YEDDİDƏN 1-İ” adlandırdığım bu kitaba, rus və türk dilli yazarlarının əsərlərindən bədii tərcümələrim daxil edilmişdir.

Oxuyacağınız bu əsərləri, şeirləri öz ana dilimizə çevirməkdə məqsədim, onları Azərbaycan oxucusuna tanıtmaq və sevdirməkdir. Düşünürəm ki, gözəl yazıların belə bir haqqı var və bu haqqı onlara tərcüməçi ödəyir – ürəyinin istisini, gözlərinin nurunu verərək. Bir şeyə təmənnasız sevgi verərsənsə, bir və ya başqa şəkildə qarşılığını qaytarar. Ədəbiyyatın qarşılığı isə - oxucu rəğbətidir!

Əziz və dəyərli oxucularıma gözəl istirahət və xoş qiraət arzu edirəm!”

Hörmətlərimlə:
Afaq ŞIXLI
Moskva

AFAQ ŞIXLI DÜNYASINA BAXIŞ (Ön söz)

2011-ci ilin avqust ayı idi. Afaq xanımın yenicə işıq üzü görmüş "Səni düşünürəm" adlı şeir kitabının şərəfinə onların bağ evinə yığışmışdıq. İstedadlı şair Elman Tovuzun yazdığı ön sözü vərəqləyərək "Belə şeir kitabına ön söz müəllifi olmaq hamıya nəsib olmur, təbrik edirəm", - dedim və Afaq xanımın əlimdəki kitabı ilə yanaşı, hələ mövcud olmayan gələcək kitabının şərəfinə badə qaldırdım. "Onda sıradakı kitabımın ön sözünü sən yazacaqsan", - deyən şairə, o xəyali kitabın heç də xəyali olmadığına işarə etdi.

Amma qismət deyilmiş. 2012-ci il may ayında Afaq xanım Bakıya gəlmişdi. Buzovnada, bu dəfə bizim bağ evimizdə yığışmışdıq. Söhbət əsnasında mən ön söz yazacağım kitabla bağlı vəziyyətin necə olduğunu bilmək üçün "Afaq, növbəti kitabı hazırlamısanmı?" - deyə sözarası soruşdum. Afaq xanım isə: "Kitab artıq hazırdır, ön sözü də sevimli şairimiz Məmməd İsmayıl yazıb", - dedi. Mən xəfifcə gülümsədim və "Çox əla! Məmməd İsmayıl gözəl şairdir!" Afaq isə, deyəsən, mənim gülümsəməyimin səbəbini anlamadı.

Bax beləcə, yazmaq istədiyim və xeyli zamandır beynimdə gəzdirdiyim bu fikirləri, Afaq Şıxlının bütövlükdə ədəbi dünyasına nəzər salmaqla, qələmə aldım, bəlkə bir ayrı kitabın öz sözü olar deyə... Qismət bu kitaba imiş.

Şeir yazanlar çoxdur dünyada. Amma şair olmur hər şeir yazan. Şeir yazan o vaxt şair olur ki, o, oxucularını öz

şeirləri ilə yaşadır və özü də yazdığı şeirlərlə oxucularının qəlbində yaşayır. Bu mənada, əsl şairdir Afaq Şıxlı. O, çeynənmiş sözləri, fikirləri, mövzuları oxuculara sırımaqla məşğul olmur, ayaqlanmış cığırlarla getmir. Onun öz yolu, öz cığırı var poeziya aləmində. Şair kimi gərək doğulasan, çünki şairlik nə oxumaqla, nə öyrənməklə deyil. Afaq xanım da anadan şair doğulub.

Şairlər əzəldən seçilib gəlir,
Hərə bir söz qoyur yadigar qala.
Ən ülvi hislərlə biçilib gəlir,
Xoşbəxt o kəsdir ki, şair doğula!

Nədir Afaq Şıxlının uğur açarı? Niyə bu qədər sevilir oxucuları tərəfindən? Səbəb sadədir. Bir çoxları kimi adının şair

çağırılması üçün yazmır o. Ürəyinə, təbiətinə, varlığına, iç dünyasına yaxın, doğma olan bir işlə məşğul olur, duyduqlarını, hiss etdiklərini yazır. Daxili mənəvi ehtiyacdan güc alır şairin şeirləri. Budur onun şeirlərindəki şirinliyin, həzinliyin, təbiiliyin, doğmalığın, səmimiyyətin və demək ki, oxucu məhəbbətinin canı, mənbəyi. Şair Məmməd İsmayıl demişkən: "Afaq xanım şeirlə yatır, şeirlə qalxır və nəfəsini şeirlə alır..."

Gəldikcə üstümə qəm addım- addım,
Həyat ələdikcə saçıma dəni,
Şeirim, mən səni yoxdan yaratdım,
Sən də yaşatmağı bacardın məni.

Vətəndən uzaqda - Rusiyada yazıb-yaratdığından, təbii olaraq vətən həsrəti havasında köklənib şairin şeirləri. Amma elə-belə, "məsafə həsrəti" deyil bu həsrət, vətən sevgisindən süd əmmiş, vətənə məhəbbətdən yoğrulmuşdur bu şeirlər...

"Vətən – mənim şeirlərimin qaynağıdır. Bəlkə də onun həsrətidir məni şair edən... Sevdiyim və bacara bildiyim qədər hər kəsə sevdirməyə və tanıtmağa çalışdığım həsrət qarışıq sevdamdır o mənim", – deyir Afaq Şıxlı.

Günəşli bir diyardan soyuq, şaxtalı bir aləmə düşmüş şairin şeirləri də özü kimi üşüyür bu aləmdə. Və üşüdükcə də xəyalında, yuxularında özünü ana vətənin isti qucağında hiss edir. Darıxır vətənin hər daşı, hər qarış torpağı üçün. Uzaqda olsa da, vətənin havası, iqlimi, küləyi, qarı onun şair ruhunu rahat qoymur:

Deyir, bu ilki qış soyuqdur yaman,
Xəzərə qar yağıb, üşüyüb dəniz.
Mənsə uzaqdayam əziz Bakımdan,
Yazı da mənsizdi, qışı da mənsiz...

Əslində, poeziya - elə sevgi deməkdir. Bəs, sevgi nə deməkdir? Sevgi deyəndə nədənsə, yalnlz sevdiyin qıza, yaxud oğlana olan məhəbbət başa düşülür. Lakin bu "xüsusi sevgi"dən başqa, bir "əsl sevgi" də var ki, bu vətənə, torpağa olan sevgidir. Vətənə, torpağa olan sevginin gücünü isə vətən, torpaq dara düşəndə ölçmək daha asan olur. Böyük Vətən müharibəsi illərində şairlər - əsgərə, qələmlər isə silaha dönmüşdü. İnsanları qələbəyə, lazım gələrsə, vətən yolunda ölməyə səsləyən şairlərimiz qələbənin qazanılmasında az rol oynamamişdılar.

Artıq 20 ildən çoxdur ki, "Qarabağ" adlı bir dərdə düçar olmuşuq. Hələ ki, dərmanını tapa bilmədiyimiz bu dərd, Afaq Şıxlının poeziyasında da təbii mövzuya döndü. Şair ədalətin zəfərinə və o günün çöx yaxında olduğuna inanır, o arzu ilə yaşayır:

Qurtarsın qan davası,
Köz bağlasın yarası.
Laçında bir toy vuraq,
Çalaq "Laçın" havası.

Bu yerin suyu qaymaq,
İçdikcə olmur doymaq.
Bu bahar Qarabağı
Gəzəydim oymaq-oymaq!

Afaq Şıxlı poeziyasının əsas xüsusiyyətlərindən bir də onun "Palaza bürünüb, elnən sürünəməsi"dir. Afaq Şıxlı hər məsələyə müxtəlif nəzər nöqtəsindən baxır, bir obyekti, sanki müstəvi üzərində hər yöndən öyrənib hər mənada fəlsəfi dərk etdikdən sonra, şeirə çevirir.

Qarışıb hər şeyin mənası, dadı,
Ruhuma xoş gəlmir bu natəmizlik...
Haqqın ədalətin sınıb qanadı,
Nə biz dünyalığıq, nə dünya bizlik.

Poeziyada bir qayda olaraq "dünya fanidir, ona bel bağlamaq olmaz" deyilir.. Afaq Şıxlı isə bəzən çox fərqli düşünür. Dünyanı şeirin, sözün varlığına görə sevir:

Gecəsi möcüzə, gündüzü cənnət -
Kaş belə görəydi çoxu dünyanı!
Nağıldır, nəğmədir, sözdü təbiət...
Qəlbinin gözüylə oxu dünyanı!

Yaxud:
Dünya qəribədir... dünya maraqlı...
Günləri, ayları, qərinəsi var.
Dünya bir kitabdır, min bir varaqlı,
Dünyanın söz adlı xəsinəsi var.

Afaq Şıxlı həm də nəğməkar şairdir. Nəğmə damır hər şeirindən, hər misrasından. Heç də təsadüfi deyil ki, onun bir çox şeirlərinə musiqilər bəstələnmiş, Azərbaycanın tanınmış müğənniləri tərəfindən sevilə-sevilə oxunmuşdur.

...Və nəhayət ki, bitməz, tükənməz, ilahi eşq! Bu mövzu Afaq şıxlı poeziyasının şah damarıdır. Acı hicranı, şirin vüsalı ilə...

Dünyaya yenidən - mənim ücün gəl!
Mən də sənin üçün doğulum bir də!
Eşqimiz od olsun, qəlbimiz məşəl,
Kölgələr olmasın biz olan yerdə.

Amma hər poeziyada olmayan bir xüsusiyyət var Afaq Şıxlının sevgi şeirlərində: o hər cür intiqamdan, hər cür nifrətdən uzaqdır, nə qədər ayrılıqlara, nə qədər ədalətsizliklərə düçar olsa da, hər şeyi unutmağa hazırdır, vüsala çağırır şairin məhəbbəti:

Deyir, kama yetir bu gün diləklər...
Bizim də arzumuz göyə ərz ola!

Sonunda qovuşa sevən ürəklər, -
Tanrıdan bu gecə məni arzula!

Şair üçün sevgi, məhəbbət mövzusunda yazmaq nə qədər vacibdirsə, əslində kifayət qədər də çətindir. Çeynənmiş fikirləri təkrar etmək, bununla da öz oxucularını məyus etmək təhlükəsi bütün dövrlərdə gündəmdə olub. Amma öz orijinal bənzətmələri ilə hər zaman məlum fikirlər arasına bir yenilik gətirməyi bacaran Afaq Şıxlı bu təhlükələrdən olduqca uzaqdır:

Dünyaya yenidən, mənim üçün gəl,
Mən də sənin üçün doğulum bir də!
Eşqimiz od olsun, qəlbimiz məşəl,
Kölgələr olmasın biz olan yerdə!

İlahi, nə gözəl misralar! Layla çalır oxucuya, həziz-həzin kövrəlir insanın qəlbi...

Doğrudan da Afaq Şıxlı şeirlərinin birində deyilən kimi "sevgi qatilləri"dir - sevginin qiymətini bilməyənlər.

Dilində "Məni bir də sevərsənmi?!" kimi ülvi bir sual olan saf duyğulu şairə hər zaman ümidlə yaşayır və oxucularına da ümid qanadları taxır.

Hər vuran ürəyin öz murazı var,
Gizlisi, aşkarı, əlçatmazı var.
Həyatı ümidlə yaşamaq gərək,
Arzular bitərsə - döyünməz ürək!

Sevginin özü qədər müqəddəsdir sevgidən yazmaq və sevginin özü qədər müqəddəsdir sevgidən yazanlar.

Beləcə, bir şair də əlavə olundu bu müqəddəslər sırasına, bir şair də müqəddəsləşdi sevgidən yaza-yaza.

Müəyyən xəstəlikləri müalicə etmək üçün tibb elmində "musiqi terapiyası" kimi bir metoddan da istifadə edilir. Düşünürəm ki, artıq "şeir terapiyası", "poeziya terapiyası" kimi metodlar haqqında da düşünməyin vaxtı çatmışdır. Afaq xanım ixtisasca həkimdir, xəstələrin iç dünyasını, bir peşəkar olaraq, yaxşı duya bilir. "Şeir terapiyası" üçün əsl dərmandır, şəfa mənbəyidir onun bayatı kimi həzin, qoşma kimi şirin sevgi şeirləri.

Afaq Şıxlının şeirləri xeyli müddətdir ki, mənim işlədiyim Xəzər universitetində dərc olunan "Xəzər Xəbər" jurnalında müntəzəm olaraq çap olunur. Bir dəfə universitet əməkdaşlarından bir nəfər Afaq Şıxlının şeirlərinin jurnalda çox tez-tes çap olunduğunu qeyd edərək bundan narahat olduğunu və baş redaktora etirazını bildirəcəyini söylədi. Maraqlıdır ki, müsahibimi narahat edən məqam şeirlərin yaxşı, ya da pis şeirlər olması deyil, sadəcə olaraq bir jurnalda bir müəllifin tez-tez dərc olunması idi. Mən də burada heç bir başqa bir səbəb olmadığını və bunun əsas səbəbini - Afaq Şıxlının şeirlərinin oxucular tərəfindən çox sevilməsini - onun diqqətinə çatdırdım. Sonra bu məsələ ilə bağlı, baş redaktorun müavini, respublikanın tanınmış jurnalisti Əlirza Balayevlə məsləhətləşdim. Əlirza müəllim bu şairənin şeirlərini çox bəyəndiyini və heç bir problemin olmadığını söylədi.

İş elə gətirdi ki, bu arada nəyə görəsə, Afaq xanım yeni şeirlər göndərmədi və bir müddət jurnalda Afaq Şıxlı şeirləri dərc olunmadı (Afaq xanım həmişə şeirlərini

redaksiyaya mənim vasitəmlə çatdırırdı). Nəhayət, xeyli vaxtdan sonra, jurnalın 299-cu sayında çap olunmaq üçün şairənin Moskvadan göndərdiyi 5 sevgi şeirini redaksiyaya təqdim etdim. Şeirlər dərc olundu. Jurnalın növbəti sayı çapa hazırlanarkən Əlirza Balayev mənə yaxınlaşdı: "İsaxan müəllim, Afaq Şıxlının dərc olunmuş şeirləri şairlər tərəfindən xoş əks-sədalara səbəb olub. Bir sıra peşəkar şairlər mənə telefon edərək Afaq xanımım şeirlərini çox bəyəndiklərini deyirlər. Açığını deyim ki, mən də çox bəyənirəm. Onun şeirləri, xüsusən də son zamanlarda təqdim etdiyi sevgi şeirləri doğrudan da gözəl və ləzzətlə oxunan şeirlərdir. Yeni şeirlər yoxdur ki?"

Düşünürəm ki, baş redaktor müavininin gülümsəyərək söylədiyi bu səmimi sözlərdən sonra Afaq Şıxlının şeirləri həmişə sevilə-sevilə oxunduğu kimi, elə sevilə-sevilə də Xəzər Xəbər jurnalında çap olunmağa davam edəcəkdir, neçə ki, bu yaxın günlərdə daha bir şeir çələngini dərc etmək şərəfinə nail olduq.

Afaq Şıxlı çox rəngarəng yaradıcılığa malik insandır. Onun Türk və rus dilindən etdiyi bədii tərcümələri gözəl ədəbi nümunələr hesab edilir. Şairənin ana dilimizdə yazdığı qoşmaları, gəraylıları, rübailəri, heca və sərbəst vəzndəki şeirləri ilə yanaşı insanı düşünməyə vadar edən, vətən və ana sevgisini ülviləşdirən, məhəbbəti aliləşdirən mənsur şeirləri, hekayələri də vardır. Bu kitabda isə şairənin rus və türk dillərindən bədii tərcümələri yer almışdır.

Oxuyacağımız kitab bədii tərcümələr kitabı olsa da, mən yazımda şairənin öz şeirlərini incələməyə, onlar haqda fikir söyləməyə bilmədim. Bəlkə də, bu daha yaxşı

oldu, çünki, bu kitab kiminçünsə Afaq Şıxlının əsərlərindən ilk oxuduğu nümunədirsə, mənim sözlərim lap yerinə düşəcək və şairə haqqında ümumi də olsa məlumat almağa imkan yaradacaqdır.

Özüm də uzun illərdir rus dilindən tərcümələrlə məşğul olduğumdan, Afaq Şıxlı ədəbi tərcümələrinin, rus şeirini Azərbaycan oxucusuna təkrarən sevdirəcəyinə tam əminəm! Bu türk şeirlərinə də aiddir təbii ki...

Bir şeyə də diqqətinizi çəkmək istəyirəm ki, şairə yalnız tanınmış, ünlü yazarların əsərlərinə deyil, gənc, amma gələcəkdə öz sözünü deyə biləcək yazarların yaradıcılığına da müraciət edir. Bu isə, onun təvazökarlığından və sadəliyindən irəli gəlir.

Ədəbiyyatın hansı janrı olur-olsun, Afaq xanımın hər bir kəlməsinin onun oxucularına əziz və doğma olduğunu qətiyyətlə deyə bilərəm.

Yuxusuz gecələrim,
qızaran gözlərim,
yorulan barmaqlarım,
inciyən övladlarım
şahiddir sənə olan sevgimə,
Ədəbiyyatım!

Onun sadəcə özü üçün qeyd etdiyi bu bir neçə misradan, yeganə və ömürlük sevdası adlandırdığı Ədəbiyyata olan böyük və qarşısıalınmaz sevgisi bəyan olur.

Qəm, kədər insanı bəlkə də, hər şeydən daha çox saflaşdıran ülvi hislərdir. Odur ki, bir az təkliyə çəkilib xatirələrə dalmaq, xəyalən "insafsız sevgi"nin oduna yanmaq və bununla da ilahi bir saflığa qovuşmaq istəyirsinizsə, izləyin Afaq Şıxlı yaradıcılığını! Mütləq izləyin!

İsaxan İsaxanlı
Pedaqoji elmlər üzrə fəlsəfə doktoru
Publisist, tərcüməçi
(Azərbaycan)

FİKİRLƏR (Dost sözü)

"**B**öyük rus şairi Jukovski deyirdi ki, nəsrin tərcüməçisi - nasirin köləsi, şeirin tərcüməçisi isə şairin rəqibidir! Şairə Afaq Şıxlının bədii tərcümələrini oxuduqca onun, həqiqətən də, müəlliflərə çox güclü bir rəqib olduğu aydınca görünür.

Əlinizdəki kitabda toplanan tərcümələr arasında bir çox yazarlarla yanaşı, Anna Axmatovanın da şeirləri də xüsusi yer almışdır.

Anna Axmatova və Marin Svetayevanın əsərləri, məncə dünya şeirində qadın ilhamının böyüklüyünə şübhə ilə yanaşanlara ən tutarlı cavab olmuşdur. Zənnimcə, Afaq Şıxlı - sevə-sevə ana dilimizə tərcümə etdiyi Anna Axmatova kimi Azərbaycan şerini daha böyük üfüqlərə daşıya biləcək bir şairədir.

Anna Axmatova - A. A. və Afaq Şıxlı Abdullayeva (həyat yoldaşının soyadı) - A. A. Hər iki şairin ad, soyad oxşarlığına fikir verirsinizmi?! Bu inisialların eyniliyi bizə nə deyir? Sonra, şairələrin doğum günləri – 23 iyun və 25 iyun. Bu damı bir təsadüfdür? Diqqətlə izləsək bütün bunların təsadüfü olmadığını, zaman aralıqları ilə onların tale bənzərliklərinin və ruhi oxşarlıqlarının var oluşunu görə bilərik.

Mən əminliklə deyə bilərəm ki, Afaq, Anna Axmatovanın şeirlərini təsadüfən yox, şüuraltı bir fəhmlə - tale görəvi kimi tərcüməyə başlamışdır. Özü də necə böyük sevgiylə və əzmlə. Bu şairələrin oxşar yönlərinin olması faktı danılmazdır. Ən əsası isə odur ki, Şeir –

onların hər ikisi üçün qara sevdadır! Hər şeylərini, amma hər şeylərini poeziya uğruna qurban verə bilərlər...

Rus ədəbiyyatının görkəmli simalarından biri olan Mixail Sinelnikov Afaq Şıxlını müasir Azərbaycan ədəbiyyatının Axmatovası adlandırmışdır.

Türk dünyasının tanınmış yazarı və tərcüməçisi İmdat Avşar isə, onu Natəvandan, Nigar Rəfibəylidən sonra Azərbaycan poeziyasının ən istedadlı və zərif duyğulu qadın şairi hesab edir.

Afaqın Anna Axmatovadan etdiyi tərcümələrin böyük məsulyyət olduğunu bilərək, onu hər zaman izləyirəm. Bu yaxınlarda oxuduğum bir şeir diqqətimi çox çəkmişdi:

...Gələrik kiçicik bir kilsəyə biz,
Kiməsə bəzənib nigah masası...
Yayınır günahkar nəzərlərimiz -
Niyə yazılmamış bizə bu yazı?!

Ya da məzarlığa gəlib yanaşı
Torpağa çökərik... Ömür də bir yük!
Bir otaq çızarsan sən uzaqbaşı
Hardakı nə vaxtsa... birgə... ömürlük...

Bu misralar əsla tərcümə edilmiş şeir misraları kimi oxunmur, orijinal bir mətn kimi qarşımıza çıxır.

Bu sözləri Marina Svetayevadan etdiyi tərcümələrə aid etmək olar. Marina Svetayeva yazırdı ki, "Rusya hansısa önəmli sözünü demək üçün iradəmin ziddinə məni seçdi. Və tərifləyə-tərifləyə buna məni inandırıdı ki, bu fikirləri

olduğu kimi söyləməyi yalnız sən bacara bilərsən!" Bu mənada, bəlkə nakam sevdalar da özlərini izhar etmək üçün Afaq Şıxlını seçmişlər?

Eşqimlə bərabər ağrı-acım var...
Əzizlə, mehrinə ehtiyacım var!
Yağışın səsitək xoşdu gülüşün...
Ruhumu oxşayan kəlmələr düşün!

Məncə, hər şey bu misralardan aydın olur: rus şeirinin ruhu və ana dilimizin şirinliyi bir arada.

Eyni məna və dil gözəlliyini türk dillərindən etdiyi tərcümələrdə də aydınca görmək olar! Hər iki dili mükəmməl bildiyindən, hansı şairi tərcümə etməsindən asılı olmayaraq: istər klassikləri, istər müasir yazarları - onun tərcümələrində sözlər öz yerini tapır və buna görə də poetik ovqat yaradıb rahat nəfəs alır...

Məmməd İsmayıl
Şair, yazıçı, publisist, tənqidçi, tərcüməçi
(Azərbaycan-Türkiyə)

"**A**faq Şıxlı çağdaş Azərbaycan ədəbiyyatının cidii nümayəndələrindən biridir. Yaratdığı ədəbi nümunələr yeniliyi və aktuallığı ilə seçilir. Nəzərimi cəlb edən ən maraqlı əlamətlərdən biri də odur ki, şairənin əsərlərini bəzən klassik, bəzən isə müasir üslubda yazılmış nümunələr kimi qəbul etmək olur. Daha çox şeirləri ilə məşhurlaşan Afaq xanım ilahi eşqi önə çəkməkdə haqlıdır. Qalan nə varsa sonra gəlir...

Onu da qeyd edim ki, Afaq Şıxlı şeirlərində həmişə qəribə bir yanğı, nisgil olub, indi də var. Bu isə heç şübhəsiz ki, şeirin gücünü artıran amillərdəndir. Belə şeirlər oxucunu təkcə təsirləndirmir, həm də düşündürür. Afaq xanım xoşbəxt şairdir, çünki şerilərinin ünvanına yalnız xoş sözlər eşidir, həm də şairə şeirlərinə görə tanınır, şeirləri şairəyə görə yox.

Tərcümələrinə gəldikdə isə, tək onu demək yetər ki, istər rus və istərsə türk dilindən çevirdiyi şeirlər özü ilə ruhunu, fəlsəfi aləmini da gətirir. Müəllifin kim olduğu haqda məlumat yazılmış olmasa, elə bilərsən ki, bu şeirlər elə Azərbaycan şairinin şeiridir; sözləri ilə, canlılığı, axıcılığı, fəlsəfəsi ilə...

Afaq Şıxlı bədii tərcümələrində də, ədəbi ciddiliyi, səliqə-səhmanı, yaratdıqlarının, necə deyərlər, diriliyi, ölməzliyi ilə fərqlənir. Bunlar isə, heç şübhəsiz ki, yazarı sevdirən əsas amillərdəndir; oxucunu özəl və gözəl nəfəsə və həvəsə malik bu könül insanını və onun yaradıcı aləmini daha yaxından tanımağa sövq edir".

Elman Tovuz
Şair, publisist
(Azərbaycan)

“**М**не кажется, что Афаг Шихлы - подлинный и проникновенный поэт. Острота переживания и непрестанно ищущая мысль сочетаются в её стихотворениях со строгостью формы. Что отрадно, поскольку в текущей словесности нашего времени бессвязность и бесчувственность так часто усугубляются формальным распадом.

Я бы даже назвал ее Анной Ахматовой современной азербайджанской поэзии.

Эта поэтесса, и осознавая новизну времён, не утратила связи с традицией национальной классики. Афаг, конечно же, повествует о собственных, незаёмных чувствах, но однако возникает ощущение, что эти чувства присущи и другим, оказавшимся в том же положении, что эта судьба является до некоторой степени всеобщей.

Именно потому эта лирика имеет право на признание читателей”.

Михаил Синельников
Поэт, критик, переводчик, публицист
(Россия, Москва)

“**А**фаг Шихлы, поэтесса, переводчица и эссеистка, пишущая на своём родном языке и живущая в Москве.

Это, только факт биографии, главное, её стихотворения, в которых можно расслышать и ностальгию о родимой земле, и душевную неприкаянность, как одну из составляющих той страсти, о которой сказано «Наши страсти упорны…» Упорны, несмотря на то, что «Жизнь имеет пределы…». Ну конечно, именно так и рождаются лучшие стихотворения…

Стефан Малларме, однажды сказал, что стихи делают из слов. И это внятно и правильно. Но течение времени внесло свои коррективы и в высказывание классика. Сегодня, у каждого поэта есть своя прибавка к этой поэтической сентенции. Есть такая прибавка и у азербайджанской поэтессы Афаг Шихлы. Во всяком случае, в лучших её произведениях, которые, я сумел прочитать в переводах современных русских поэтов”.

Евгений Чигрин
Поэт, публицист
(Россия, Москва)

“**Ч**еловек живет настоящим, думая о будущем и отдаляясь от прошлого. Но творческий человек соединяет в своем сознании все три этапа развития человечества, и чем шире диапазон его всеохватывающего призора, тем значительнее и масштабнее становятся его произведения. Путь творческого человека предопределен свыше. И может быть недаром известная азербайджанская поэтесса Афаг Шихлы должна была жить вдалеке от Родины, чтобы все ее чувства обострились и влились в прекрасные, чувственные стихи.

Соотечественники называют Афаг достоянием азербайджанского народа! И это вполне оправдано. Её перу принадлежит много стихов, рассказов, эссе, критических статей и, конечно же, литературных переводов. Она, наряду с азербайджанским, хорошо знает русский язык, и это знание использует во благо литературы. Афаг Шихлы создает поэтический мост между странами. В ее лице мы любим азербайджанский народ и узнаем его культуру и литературу”.

Сергей Каратов
Поэт, критик
(Россия, Москва)

"**A**faq Şıxlı mənim anamdır, amma mən uşaqlığımdan bəri, onu yalnız bir ana kimi deyil, böyük insan kimi, istedadlı şairə kimi tanımışam. Harada olmasından asılı olmayaraq, ətrafında yalnız mehriban, səmimi, gözəl insanlar toplamaq qabiliyyəti var anamın. Dost dediyi insanların ona sədaqətinin, etibarının şahidi olmuşam və bu sədaqət, bu ülviyyət hər zaman qarşılıqlı olub.

Layla deyən həzin səsilə, pianoda çaldığı bəstələrilə, insana dünyanı və həyatı sevdirən şeirlərilə böyümüşəm. Onun sayəsində, damarlarımda incəsənət sevgisi, ədəbiyyat eşqi axır".

Nilufər A. Şıxlı
Nasir, şair, publisist
(Azərbaycan-Rusiya)

“Afak Şıhlı Azerbaycan edebiyatının parlak yıldızlarından biridir. Onun yüreğine gerilmiş ve her an inleyen yüzlerce tel var. Afak hanım ne zaman o tellere dokunsa, onun kaleminden beyaz kağıda hüzünlü nağmeler dökülüyor.

Afak Şıhlı’nın şiirlerinde, aşk ekseninde semaha duran bir yüreğin feryatları ve yangın yerine dönen bir gönlün figanı var... Onun, içli türküler, hazin nağmeler gibi insan ruhunda derin izler bırakan mısraları, ayrılık acısıyla tutuşan ve kavuşma hasreti ile alevlenen iki burç arasında gezinir durur… Çevirimlerine gelince, mühteşem ve farklı bir şeylerle karşılaşmış oluruk. Hanki mevzuya dokunur dokunsun, güzellikler yaratır!”

İmdat Avşar
Şair, yazıçı, tərcüməçi, tənqidçi
(Türkiyə)

"**O**'nu tanıdığım günden bu yana şiirlerim değişti, yazılarım değişti, hayata bakış açım değişti. Bazen O' na çok kızdığım da oldu. Neden mi; yazdığı her yeni şiirini okuduğum zaman kendi kendime "nasıl oluyor da benim düşüncelerimi benden önce kaleme alıyor" diye hayıflanmıyorum dersem yalan olur. O' nun şiirlerindeki sadelik, akıcılık, tatarlılık kelimelerle anlatılacak şey değil.

O güzel bir insan, güzel bir anne, hakikatli bir vatansever, kaybedilmeyecek kadar değerli bir dost ve her şeyden önemlisi muhteşem bir şaire. Kalem O'nun ellerine çok yakışıyor. Söylenmeyeni söylüyor. Dahası tutkuyla Çanakkale'mizi seviyor.

Diyeceğim o ki; Afaq Shixli hanımı tanımış olmak benim için büyük bir onur!"

Mustafa Berçin
Şair, yazıçı
(Çanakkale, Türkiyə)

"**D**ünya, şairlerden oluşan bir saray olsaydı; o sarayın "Sultan"larından biri de hiç kuşkusuz Afak Şıhlı olurdu. Afak hanım - ömrünü edebiyata vakfeden bir şair. Dünya Edebiyatında ses getiren bir dil sancaktarı. Ve dahası - O, Türk'ün manevi anakenti Çanakkale'nin Fahri Edebiyat Elçisi!

Daha önce birçok başarılı çalışmaya imza atmış olan ve kitapları Türkiye'de, Rusya'da, Azerbaycan'da, kısacası Dünya'nın bir çok ilinde yayınlanan ve her eserini heyecanla okuduğum Sn. Dr. Shıhlı'nın yeni hazırlamış olduğu bu güzel kitapının da kendisine ve Türk Edebiyatına hayırlı olmasını diliyorum!"

Serdar Akkoç (Hanceri)
Şair
(Çanakkale, Türkiyə)

“**A**fak Şıhlı’yı ilk gördüğümde, çocukluğumdan beri tanıdığım yakın bir arkadaşımla karşılaşmış gibi bir duyguya kapıldım. Onun samimiliğini ve cana yakınlığını sözle ifade etmek için kelimeler yetersiz kalır. Ben onun şahsında bir Türk sevdalısı, şiir sevdalısı, sevgi ve merhamet dolu bir insan gördüm. Onun şiirleri de şiir okuma tarzı da diğerlerinden farklıydı. Onu tanımış olmaktan gurur duydum. Onu tanımakla bir kız kardeşe daha sahip olduğumu düşünüyorum. Benim şiirlerimi Azerbaycan Türkçesine uygunlaştırıp Bakü’deki meşhur bir gazetede yayımlatması ve kitabına dâhil etmesiyse, benim için şereftir. Onun bu davranışı, Afak Şıhlı’nın insanlara karşılıksız yardım edebilen, bulunduğu her yerde güzellikler yaratan nadir insanlardan biri olduğundan haber veriyor”.

Hasibe Kaya
Şair
(Çanakkale, Türkiyə)

“**H**əyatda elə insanlar var ki, onlar dünyaya xüsusi missiya ilə gəlmişlər. Afaq Şıxlı belə insanlardandır. O, öz varlığı və yaradıcılığı ilə insanları dostlaşdırır, saflaşdırır, xalqlar arasında birliyi və həmrəyliyi gücləndirir.

Mən Afaq Şıxlının daimi oxucusuyam və hər dəfə dəyərli şairəmin şeirlərini oxuyanda, ümumi olan bir şeyi görürəm, bunun adı – gözəl ürəkdir! İstər öz şeirləri olsun, istər başqa dillərdən çevirdiyi şeirlər – hər yerdə sevgi dolu mehriban bir qəlbin döyüntüləri duyulur. Məsələn, A.Axmatovanı Azərbaycan türkcəsində Afaq Şıxlı tərcüməsində oxuduqda oxşar, təkrarsız, incə bir ruhla rastlaşmaqdayıq. Bu ruh sanki tərcümanın öz ruhudur. Etiraf edək Afaq xanım Axmatovanı çox mükəmməl şəkildə bizə təqdim edir.

Bu şüşə kimi təmiz və saf qəlbdən gələn hər şey, insanı ovsunlayır, ədəbiyyatı və şeiriyyatı sevdirir”.

Samid Əziz
Oxucu
(Azərbaycan)

RUS DİLİNDƏN TƏRÇÜMƏLƏR

NILUFƏR A. ŞIXLI

Povest
Hekayələr
Şeirlər

Nilufər A. Şıxlı
Nasir, şair, tərcüməçi, publisist

Rusiya Sözçülük akademiyasının müxbir üzvü
Beynəlxalq Yazıçılar və Publisistlər assosiasiyasının üzvü
Moskva Şəhriyar Ədəbi Mədəni Cəmiyyətinin üzvü
Ümumrusiya Azərbaycan Konqresi saytının baş redaktoru
1991-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub.
2006 ildə Moskva şəhəri 1937 saylı iqtisaydiyyat təmaüllü orta məktəbin nəzdindəki gimnaziyanı gümüş medalla bitirmişdir.
Həmin ildə Moris Torez adina Moskva Dövlət Dilçilik Universitetinin Humanitar və Tətbiqi elmlər fakültəsinə qəbul olmuşdur.
2011-ci ildə universiteti bitirərək həmin fakultənin aspiranturasına daxil olmuşdur.
2013-də Lomonosov adına MDU-nin jurnalistika fakültəsini (ikinci təhsil) bitirmişdir.
İki roman, bir neçə povest, çoxsaylı şeirlər və hekayələrin müəllifidir.
Əsərləri Azərbaycan, Gürcüstan, Çexiya, Latviya, Türkiyə, Almaniya kimi ölkələrdə dərc olunub.
Rəssamlıqla məşğul olur.
Mükəmməl olaraq beş dil bilir.

“ÖLÜMSÜZ”
Povest (ixtisarla)

Artıq neçənci dəfədir ki, eyni cavab gəlir: “Mənfi”...

Doğrudanmı ana olmaq mənə qismət deyil? Doğrudanmı, bütün insanlara xoşbəxtlik gətirən kiçicik, doğma, isti bir varlığı heç zaman qucağıma ala bilməyəcəm?

Dəfələrlə gözlərimi yumub, qucağımda balam, xəstəxanadan çıxmağımı, bizi sevinclə qarşılayan qohumlarımızı və dostlarımızı təsəvvür edirəm. Gözlərimin önündə, Əmirin, iri və gözəl çiçək dəstəsini necə mənə uzatması canlanır.

Ah bu göz yaşları! Yenə də ağlayıram... Nədən həyat belə haqsızlır edir? Axı dünyada o qədər çoxuşaqlı ailələr, eləcə də, övladlarından imtina edən analar var. Və yalnız bir övladın həsrəti çəkən insanlar... Yəni mənim arzum gözümdəmi qalacaq? Bəs birdən, ərim gözləməkdən yorulsa? Axı, kişilərdən hər şey gözləmək olar! Yox, Əmir məni çox sevir! Amma altı il də az zaman deyil... Mən bunu anlayıram və hiss edirəm ki, o, gündən-günə dəyişir: daha mənə əvvəlki gözlərlə baxmır, işə daha çox vaxt ayırır, evə geç gəlir... Birlikdə olduğumuz zamanlarda isə, hərəmiz bir işlə başımızı qatırıq. Əlbəttə, o da başa düşür ki, övladımızın olması məndən asılı deyil və bilir ki, mən bunu bəlkə ondan daha çox arzulayıram. Amma, artıq 32 yaşı var və hər bir kişi kimi, o da ata olmaq, bütöv ailə sahibi olmaq istəyir.

Kaş ki, hər şey insanın öz əlində olsaydı!

Biz ailə quranda, mənim 24 yaşım vardı. Kiminçünsə bu tezdir, kiminçünsə - geç, amma nədənsə mən belə hesab edirdim ki, yalnız, təhsilimi başa vurduqdan sonra ərə gedə bilərəm.

Əmirlə universitetdə tanış olmuşduq: hər ikimiz hüquq fakültəsində oxuyurduq. Onun ətrafında həmişə çoxlu qızlar dolaşırdı, bu da təbii idi, çünki Əmir çox qəşəng, hündürboylu, mütənasib bədənli bir oğlandı. Gitarada çala bilir və gözəl də rəqs edirdi. Amma mənim diqqətimi cəlb edən xüsusiyyətlər bunlar deyil, onun yüksək mədəniyyəti və hərtərəfli biliyə sahib olması idi. Öncələri, biz sadəcə dost idik; dünyada baş verən hadisələrdən maraqla danışar, doymadan saatlarla söhbət edərdik. Bizə, birlikdə olduqca maraqlı idi, sonralarsa, aramızda sevgi olduğunu anlamişdiq...

Əmir İstambula, Türkiyənin böyük şəhərlərindən biri olan Berqamadan gəlmişdi. Berqama - İzmirin şimalında, ondan təqribən 100 km aralıda, Bakırçay hövzəsində yerləşən gözəl bir məkandır. Onun içindən dağlara tərəf uzun yol gedir və orada, dəniz səviyyəsindən xeyli hündürlükdə, bir zamanlar böyük və möhtəşəm padişahlığın - Perqamanın xərabələri yerləşir.

Mən o yerləri, oranın hər şeylə maraqlanan, lakin sadə və mehriban insanlarını, yaşıllıq içində itib-batan füsunkar sahillərini və möhtəşəmliyi və əzəmətiylə insanı sehirləyən o dağlarını çox sevmişdim.

Əmirin anası dünyasını dəyişmişdi. Berqamada atası ilə böyük bacısı yaşayırdı və əfsuslar olsun ki, bacısı ilə anlaşa bilməyəcəyimizi, onunla tanışlığımızın elə ilk günündən, hiss etmişdim.

Mən İstambulda doğulmuşdum. Atam Azərbaycanlı idi. Valideynləri, o İstambulda universitetdə oxuyarkən avtomobil qəzasında həlak olmuşdular. Valideynlərinin dəfnindən sonra, atam təhsilini davam etdirmək üçün geri qayıtmış, anamla tanış olmuş, evləndikdən sonra isə həmişəlik burada qalmışdı.

Mən ailənin ortancıl uşağıyam. Böyük qardaşım Tuncay, xanımı və iki övladı ilə birlikdə İsveçrədə yaşayır. Kiçik bacım Əsra isə, iki aya yaxındır ki, İzmirdə yaşayan varlı bir iş adamı ilə ailə qurub.

Həyatımı xatırlayarkən, deyə bilmərəm ki, ailənin sevimli uşağı olmuşam. Bəlkə də əksinə. Tuncay ilk uşaqdı, həm də oğlandı, şərqlilər isə nədənsə oğulsevən olurlar. Əsra isə sonbeşikdi, və nə gizlədim, məndən daha gözəl, şirin, özünü istədəbilən bir qızdı.

Mənə etibar edirdilər, mənə ümid bəsləyirdilər, mənə qarşı daha tələbkardılar, amma çox sevirdilər – deyə bilmərəm. Mən bunu hiss etməmişdim.

Hər zaman düşünmüşəm ki, insana qoyulan ad onun həyatına çox böyük təsir bağışlayır. Mənim adım Sarmaddır, ərəbcədən tərcümədə "ölümsüz" deməkdir. Yəqin ki, adımın təsirindən idi ki, mən qarşıma çıxan hər bir çətinliyə dözə bilirdim. Bəzən düşünürəm ki, valideynlərim mənə daha incə və romantik ad versəydilər, məsələn, bacımın adı kimi, o zaman taleyim tamam başqa olardı. Amma... inanmıram ki, övladımın olub-olmaması adımla bağlıydı...

Məni bu səssiz düşüncələrimdən ayıran - telefon zəngi oldu.

Anam idi.

- Alo, Sarmad!

Bir qədər həyəcanlandım. Anam mənə çox az-az hallarda: əsasən ürəyi ağrıyanda və ya atamın qan təziqi qalxanda zəng edərdi.

- Ana! Nə yaxşı ki, zəng etmisən. Necəsən, atam necədi?

- Hər şey qaydasındadı, sənin əziz atan da yaxşıdı. Çox mühüm xəbər var!

- Nə xəbər, - deyə maraqla soruşdum.

- Heç vaxt tapa bilməzsən, - anamın səni həddən artıq şən və cingiltili idi.

O nə xəbərdi ki, anamı belə həyəcanlandırıb, - deyə düşündüm.

- Əsra hamilədir! – anam təntənə ilə söylədi. – Təsəvvür edirsən?! Sənin bacın hamilədir, ana olacaq!

- Əsra ana olacaq? Bu nə gözəl xəbərdi! Mən çox şadam!

- Hələ biz necə sevinirik, bir bilsən! Tez ol, dur bizə gəl, eşidirsən? Bacıngil gəliblər, buradadırlar. Səni gözləyirik!

- Yaxşı, anacan, gələcəm, - deyə cavab verdim, amma o, artıq dəstəyi asmışdı.

Bax bu da mənim anam! Eh, anacan! Heç bir kəlməylə mənim halımı belə soruşmadı, halbuki təhlillərin cavabını gözlədiyimi bilirdi... Amma indi ondan incimək zamanı deyildi.

Mən geyinib evdən çıxdım. Hava soyuq idi, nazik paltomun yaxalığını qaldıraraq taksi dayanacağına yollandım. On beş dəqiqə sonra artıq ata evinin önündəydim. Qapını Əsra açdı.

- Salam, əzizim!

Həyəcandan və sevincdən səsim titrəyirdi. Əsra boynuma sarıldı.

- Sarmad, canım mənim! Elə xoşbəxtəm ki!

Mən onu qucaqladım.

- Təbrik edirəm, balaca! Sən dünyanın ən qəşəng anası olacaqsan!

Biz əl-ələ tutaraq, qonaqlarla dolu otağa keçdik. Deyəsən, anam İstambulda yaşayan bütün qohumlarımıza zəng etməyə macal tapmışdı. Gələnlər artıq yeyib-içir, şənlənir, Buludla Əsranın, gələcək körpənin sağlığına badə qaldırırdılar. Bu şad xəbəri duyan ən son adam da, deyəsən, mən idim.

Bacım danışdı ki, o həyat yoldaşı ilə birgə hələ ki, İstambulda qalacaq; doqquz ayı anasının və buradakı həkimlərin nəzarəti altında olmaq istəyirdi. Və bir də dedi ki, onlar ayrıca ev kirayələmək istəyirlər, anamız isə razı deyil, deyir ki, hökmən onlarda yaşamalıdırlar.

Mən bilirdim ki, anamım hökmü hər zamankı kimi öz işini görəcək, və... eləcə də oldu. Hadisələrin gedişatına ürəkdən sevinən atamın fikrini soruşmaq isə kimsənin ağlına gəlmədi.

Atamın fikri heç vaxt heç kimi maraqlandırmırdı, bu həmişə belə idi. Heç kim dediyimdə, mən əsasən anamı nəzərdə tuturam. Atam sakit və mülayim bir insandı, odur ki, bizim evdə hər şey anamın istədiyi kimi olurdu. Bəzən də, o, öz fikirlərini atamın adından irəli sürür, atamsa bunları sadəlöhvcəsinə "udurdu". Yadımdadır ki, hərdən gözləri yol çəkir, dərindən köks ötürür, "Eh, vətəndən uzaqda ildən-ilə səfehləşirəm..." – deyirdi.

Beləliklə, artıq, bacım əri ilə birlikdə atamgildə yaşamaqda, bizim həyatımız isə qaçhaqaçda və qayğılar içində keçməkdə idi.

Əsraya şəhzadə kimi qulluq olunurdu. Onun rahatlığı üçün hər cür şərait yaradılmışdı: yenicə təmir olunub rahat mebellə döşənmiş otaqdan tutmuş, şəxsi həkimin təyin etdiyi xüsusi pəhriz yeməklərinədək...

Biz Əsranın hər nazıyla oynayırdıq, həyəcan keçirməyə və əlini-ağdan qaraya vurmağa qoymurduq. Onun bütün istəkləri qanun kimi yerinə yetirilirdi. Mən isə, öz evimlə ata evi arasında qalmışdım; hər şeyi zamanında çatdırmağa çalışır, axşama yorğun düşürdüm. Iki evdə gördüyüm işlərdən əlavə, Əsra ilə bütün həkimlərə də mən gedir, onunla birgə uşaq paltarı satılan mağazaları da mən gəzirdım.

Artıq hər adi bir ağrı zamanı Əsra "doğuş başlandı" deyə qışqırır, biz isə onu xəstəxanaya qaçırdırdıq. Həkimlər buna "yalançı sancılar" deyirdilər və heç nədən qorxmamağı məsləhət görürdülər. Hərçənd ki, biz qorxmaya bilmirdik. Deyim ki, bizimlə birgə, Əsranın şəxsi həkimi də az əziyyət çəkmirdi. Bulutun doğuş zamanı arvadının yanında olmaq və ilk övladının gəlişini kameraya çəkmək üçün artıq icazə almışdı.

Böyük qardaşımın uşaqları İsveçrədə doğulduqları üçün, Əsranın körpəsi gözümüz önündə dünyaya gələcək ilk uşaq olacaqdı. Ana-atam üçün bu uşaq yəqin ki, möcüzəyə bənzər bir şey olacaqdı.

Iyulun ikisiydi. Bu gün mənim yadımdan heç zaman çıxmayacaq! Səhər tezdən olsa da, göydən od tökürdü. Günəş elə yandırıb yaxırdı ki, asfaltın üstündə qayqanaq

bişirmək olardı. Gündüz saat üçə yaxın, havanın ən qızmar zamanında, ikinci mərtəbədən qışqırtı qopdu. Əsra bu dəfə səhv etmirdi – əsil doğuş sancıları başlamışdı.

Bacım onsuz da ağrıya dözməyən incə bir məxluqdu, o da ola doğuş sancıları! Onun səsi insanın ruhunu sarsıdırdı. Atam yerindəcə donub qalmışdı. Buludun rəngi avazımış, anamın ürəyini tutmuş, mənim isə matım-qutum qurumuşdu.

Bulud ilk bircə bunu edə bildi ki, həkimə zəng vurub Əsranın vəziyyətini xəbər verdi.

Bütün küçə Əsranın harayına toplaşmışdı. Anam təcili yardım maşınının qarşısında az qala özündən getmişdi; ona belə həyəcanlanmaq olmazdı. Yolda Əsranın vəziyyəti daha da ağırlaşdı. O ağrıdan qıvrılır, amma əvvəlki kimi bərk qışqırmışdı. Xəstəxanada mən artıq hiss edirdim ki, nəsə bir problem var. Çünki, onu müayinə etdikdən sonra həkimlər qəribə şəkildə əl-ayağa düşmüşdülər, - onlar isə hər saatlıqla belə etmirlər.

Biz dəhlizdə durub narahat və nagüman gözləyirdik. Allaha yalvarırdım ki, doğuş qaydasında keçsin. Bacımı və onun gələcək övladını elə sevirdim ki, başqa heç nə haqda düşünmək iqtidarında deyildim.

Kimsə arxadan əlini çiynimə qoydu – bu Əmir idi. Bulud ona zəng etmiş, o da tələsik özünü yetirmişdi.

Nə yaxşı ki, Əmir burada idi. Ona, indi hər zamankından daha mox ehtiyacım vardı. Elə Buludun da. Bulud, hey içəri girməyə cəhd edir, buna haqqı olduğunu və doğuşun çox gec çəkdiyini təkrar edirdi. Nəhayət ki, həkim bayıra çıxdı. Nəsə bir faciə baş verdiyi üzünə həkk olmuşdu.

Əsranın uşağı ölü doğulmuşdu. Həkimin dediyinə görə, göbək ciyəsi dölün boynuna dolanmış və asfiksiyaya səbəb olmuşdu. Sadə sözlərlə desək, körpə boğulmuşdu.

Allaha şükür ki, Əsraya bir şey olmamışdı, əgər belə demək olardısa... Onun ruhi vəziyyətini düşünməyə belə qorxurdum.

Bacımın üzünə baxa bilmirdik... Anamla mən o qədər ağlamışdıq ki, gözlərimiz qıpqırmızı olmuşdu. Bulud isə sanki bir günün içində on il qocalmışdı. Bir sözlə, bütün ailə yasa batmışdı.

Həyat çox qəribə imiş! Bu gün mən bir daha əmin oldum ki, o, öz qəribə: gah dəhşətli, gah da gözəl sürprizləriylə, bizimlə sanki məzələnir.

Artıq neçə həftə idi ki, ürəyim bulanırdı, iştahım azalmışdı. Özüm də çox həssas və əsəbi olmuşdum və bütün bunları keçirdiyim streslə əlaqələndirirdim. Lakin sən demə, yanılırammış – mən hamilə idim. Demək ki, gecə-gündüz əlimi göylərə açıb yalvardığımda, dualarım cavabsız qalırdı. İndi isə, bu haqda düşünmədiyim və ümidsizliyə qapıldığım bir zamanda – möcüzə vaş vermişdi.

Əmirlə mənim sevincimiz yerə-göyə sığmırdı. Amma valideyinlərim... Mən, əmin idim ki, ürəklərinin dərinliyində, onlar da bizim sevincimizə şərikdirlər, lakin bunu büruzə verə bilmirlər. Onsuz da durmadan ağlayan Əsra, bu xəbəri eşitdikdən sonra lap ruhi xəstəyə çevrildi və anam... onlara gəlməyi mənə qadağan etdi.

Halım pərişan idi. Bəzən özümü nədəsə günahkar hiss edirdim, amma bu necə ola bilərdi?! Axı hamı bilirdi ki, mən bu günü necə arzulayırdım. Doğrudanmı, bunca illər

intizar və həsrətdən sonra mənim doyunca sevinməyə ixtiyarım yox idi?

Həyatımın belə vacib günləri əzizlərimdən, ata-anamdan uzaqda keçirdi. Əsra deyəsən İzmirə qayıtmaq fikrində deyildi və o səbəbdən də, bizimkilər yanıma gələ bilmirdilər. Hərdən-bir anam zəng edirdi, o da bir-iki kəlmə hal-əhval tutub sağollaşırdı. Bir dəfə də atam gəlmişdi, bu soyuqluğun səbəbini Əsranın depressiyası ilə izah etmiş, onun vəziyyətinin daha da ağırlaşa biləcəyindən qorxduqlarını bildirmişdi.

Mən hər şeyi anlayırdım və incimirdim də, lakin yenə də ürəyim ağrıyırdı...

Tam üç ay çəkən toksikoz məni əldən salmışdı. Mədəm bulanır, qusurdum. Demək olar ki, heç nə yeyə bilmədiyimdən yaman arıqlamışdım. Əmirdən başqa qayğıma qalan yox idi, o mənə qulluq edir, sakitləşdirməyə çalışır, gözəl gələcəyimizdən danışırdı. Deyirdi ki, çox qəşəng bir oğlumuz olacaq və onun sağlam, güclü doğulması üçün, mən yaxşı yeməli, özümə fikir verməliyəm. Hirslənməməli və həyəcan keçirməməliyəm. Kaş bu sözləri təkcə Əmirdən deyil, valideynlərimdən də eşidəydim!

Hamiləliyimin yeddinci ayı idi. Bir gecə, aramslz çalan telefonun zənginə ayıldıq. Zəng edən Əmirin bacısı idi – Sonay. O ağlayaraq nəsə qışqırırdı. Mən sözləri ayırd edə bilməsəm də, ərimin yanaqlarından axan göz yaşlarını görüb nəsə pis hadisənin baş verdiyini anladım.

- Təcili kəndə getməliyik. Atamın ürəyi... - Əmir cümləsini tamamlaya bilmədi.

Sabahısı gün biz artıq Berqamada idik.

Dekabrın ortaları idi. Hava yaman şaxtalı idi. Xeyli də qar yağmışdı.

Kəndin bəlkə də yarısı Əmirin atası evinə toplaşmışdı. Mətbəxdə əl-ayaq edən və gələnlərə süfrə açanlardan başqa, bütün digər qadınlar ağlayır, vay-şivən salırdılar. Bu hay-küydən başım hərlənirdi. Evdə çox adam olduğundan nəfəs almağa hava yox idi. Küləyin əlindən pəncərələri də açmaq mümkün deyildi; şiddətli dekabr küləyi bir anda hər şeyi yerlə bir edirdi.

Beləcə, tam qırx gün insanların get-gəli kəsmədi, sonra camaat yavaş-yavaş seyrəlməyə başladı.

Sonay qələbəliyi sevirdi. Toy olsun, yas olsun – ona fərq etməzdi, təki diqqət mərkəzində olaydı. Bu neçə gündə hiss etmişdim ki, hamiləliyim onu sevindirməkdən daha çox hirsləndirmişdi. Məni elə ilk günlərdən sevməyən Sonay, indi deyəsən nifrət edirdi. Bilmirəm niyə, amma hər fürsətdə canımı acıtmaqdan həzz alırdı. Məni incitmək, atmacalarla könlümü bulandırmaq ona ləzzət edirdi. Kefi azacıq pozulanda heyfini məndən çıxırdı. Əsəblərim gərilsə də, yaslı olduğu üçün, hər hərəkətinə dözürdüm.

Hələ bir neçə ay öncə məni, qulağım eşidə-eşidə, qısır adlandıran Sonay heyfsilənərək bəyan etmişdi ki, ərə getmiş olsaydı ən azı beş uşaq dünyaya gətirərdi. O bu sözləri hər uyğun məqamda təkrarlamaqdan utanmırdı. Ona "ərə get və neçəsini istəyirsən dünyaya gətir" demək keçirdi ürəyimdən, lakin hər dəfə özümü saxlayırdım.

Düzünü deməliyəm ki, Sonay zahirən elə də çirkin deyildi, amma pis xasiyyətinin çalarları getdikcə sanki üzünə çökür, sərt davranışı və acı dili insanları onsan

uzaqlaşdırırdı. Mən nahaq ümid edirdim ki, bibi olacağını öyrənəndən sonra, onun mənə olan münasibəti dəyişəcək. Baxışlarıyla məni hər an yandırıb yaxmağa hazır olan baldızım, Berqamadan yola düşəcəyimiz günün axşamı, axır ki, arzusuna çatdı və mənim çarəsiz göz yaşlarımı gördü.

...Həmin gün ayaqlarım bərk ağrıyırdı, axşama isə yaman şışdı və mən öz otağıma keçdim ki, bir qədər uzanım. "Öz otağım" dedikdə bir qədər abartmış oldum, çünki mən bu evə gəlin gələndən bəri, Sonay ürəyi istəyən zaman qapını döymədən içəri keçir, mənim çarpayımda oturur, bəzən isə, nəsə axtarmaq bəhanəsilə, ütülənib asılmış paltarlarımı hara gəldi atırdı. Bu dəfə isə, uzaqdan gələn qonaqların çoxluğundan, qohumlardan iki qadını mənimlə bir otağa yerləşdirmişdilər. Əmir isə, öz əmisi oğlanları ilə birgə başqa otaqda yatırdı.

Sonay içəri girib əllərini belinə qoydu:

- Deməli, ev dolu adamdı, sən də gəlib rahat-rahat yatırsan?

- Sonay, - dedim, ayaqlarım çox şişib. Bir az dincəlməsəm sabaha yeriyə bilməyəcəm. Bu dəqiqə onsuz da mən mətbəxdə lazım deyiləm.

- Düz deyirsən, sən onsuz da lazım deyilsən.

Bu sözləri deyərkən, məndən cavab eşidib hay-həşir salmaq məqsədilə, gözlərini üzümə zillədi. Susdum.

- Nahaq da gəlirdin. Gərək Əmir səni elə İstambulda qoyardı.

Bir Allah bilir ki, bu dəfə susmaq mənə neçə çətin başa gəldi. Dəqiq bilirdim ki, əgər mən gəlməsəydim, o Əmiri camaat içində abırdan salana kimi danlayacaqdı. Məni də

qohum-əqrəba arasında elə gözdən salacaqdı ki, ondan sonra heç salamımı da alan olmayacaqdı.

Ayağa durub pəncərənin önünə keçdim. Həmişəki kimi davanı üstə fırlanıb gedəcəyinə ümid edirdim.

Eşik qaranlıqdı. Lakin nə qaranlıq, nə də şaxta, kənd adamlarının kefini poza bilmirdi. Onlar axşamın bu vaxtında belə, bir-birinin evinə getməyə, özü də xəbərdarlıqsız-filansız getməyə, ərinmirdilər. Ev yiyəsinin yorğunluqdan gözləri yumulmayınca da durmaq bilmirdilər. Görünür, toy və yas yerləri onların yeganə əyləncəsi idi.

- Hə, heç soruşmuram, bacın necədi?

- Sağ ol, indi bir az yaxşıdı, - deyə cavab verdim.

- Onun uşağı niyə öldü ki?

Sonayın səsində sanki sevinc qarışıq rişxənd notları duyulurdu.

- Sən Allah, gəl bu mövzuda danışmayaq, - deyə xahiş etdim.

- Mən Əmirə həmişə deyirdim ki, sənin ayağın ağırdı.

Sanki üzümə qəfildən şapalaq vurdular. Düzü, bu anda belə sözləri heç cür gözləmirdim. Üzünə baxdım. O, mənim həyəcanımı görüb daha da çoşdu:

- Deyirdim, hə, amma mənə qulaq asan kim idi?! Toyunuzdan sonra anamız rəhmətə getdi? Getdi! Yazıq, bədbəxt Əsranın uşağı öldü? Öldü! İndi də atamız... Sənin doğulan günün olmayaydı! Ailəmizə gəlin gələn günün olmayaydı! Kim bilir, hələ nələr gətirəcəksən başımıza?!

Artıq onu dinləyəcək halda deyildim. Bu sözləri deməyə necə dili gəldi, deyə düşünür və tir-tir əsirdim. Necə daş ürəkli olasan ki, belə danışasan?! Ürəyim az qala

partlayacaqdı. Ötən aylar ərzində yığılıb qalan bütün ağrı-acılar, həqarətlər bu günkü təhqirə qarışaraq selə dönüb gözzlərimdən axırdı. Bu adi ağlamaq deyildi. Bu hışqırtılar çəkdiyim əzab-əziyyətə üsyan idi, sanki.

Otaqdan çıxıb qapını çırpdım.

Sabahı gün İstambula yola düşdük. Berqamada keçirdiyim bu iki ay, ürəyimdə ağrılı izlər buraxdı. Sonayın dediyi sözləri yana-yana xatırlayırdım. Artıq kənddən uzaqlaşmış olsaq da, hansısa bir hiss, Sonayı tezliklə görəcəyimi deyirdi mənə.

Nə qədər yorulduğumu evimizin kandarından içəri girər-girməz anladım. Yalnız indi hiss etdim ki, öz adi həyat tərzimdən, Əmirlə ikilikdə, sakitlikdə qalmaqdan ötrü necə də darıxmışammış; ötən iki ayda biz buna imkan tapa bilməmişdik. Bəlkə bundan belə Əmir yavaş-yavaş özünə gələ biləcək... Nə zamandı üzü gülmürdü, mehriban, hər zaman ürəyimə rahatlıq gətirən gözləri kədər dolu idi. Əmir atasını çox sevirdi. Əlbəttə, ğedənlər haqda pis danışmazlar, lakin onun rəhmətlik anası ilə atası bir-birinin tam əksi idilər: Safiyə xanım - hikkəli və deyingən, Ömər bəy isə mehriban, sakit və ədalətli insan idi.

Martın 25-də doğuş sancılarım başladı və Əmir məni xəstəxanaya götürdü. Oğlumuz oldu. Bir neçə gün sonra isə ilkimizlə birlikdə xad-xürrəm evimizə döndük. Daha bu dünyada heç bir dərdim yoxdu – sevimli ərim, sağlam övladım, evim, sakit və xoşbəxt həyatım...

Lakin elə adamlar var ki, onlar hər bir xoşbəxt insanı göylərdən yerə endirməyi, günlərini göy əskiyə düyünləməyi bacarırlar. Mənim baldızım belə insanlardan biriydi.

Oğlumuz Ömərin doğuşundan bir neçə həftə sonra Sonay xəbərdarlıqsız-filansız bizə köçdü. Bu hərəkətini onunla izah etdi ki, daha ata evində yaşaya bilmir, günü ah-zarla keçir, həm də əziz qardaşı oğlunu özü saxlayıb böyütmək istəyir. Danışdı ki, rəhmətlik valideynləri yuxusuna girib ona qardaş ocağına getməsini buyurublar. Sözlərini hönkürtüylə bitirən baldızım bununla da qələbəsini təsdiqləmiş oldu.

Tezliklə Əmirin vəzifəsini böyütdülər və Sonay təntənəylə bildirdi ki, bu onun ayağının sayası, başının bərəkətidir.

Başqa vaxt olsaydı, Əmirin vəzifəsinin artmasına sevinərdim. Lakin indi, o evdə tapılmırdı, bütün günü işdə itib-batır, mənsə Sonayla təkbətək qalmağa məcbur olurdum. Bu isə ölümdən betərdi.

Günlər keçir, Sonay şəhər həyatına getdikcə daha çox öyrəşir və özünü bizim evin sahibəsi hesab edirdi. Bəzən mənə elə gəlirdi ki, qonaq - o deyil, mənəm.

Elə ilk gündən ən böyük otağa yiyələnən Sonay, bir oturuma iki nəfərin yeməyini yeyirdi və bu oturumların sayı gündə ən azı dörd dəfə olurdu. Günorta bişirilən yeməyi də axşama yeməzdi. Əmr verməkdən və qarşısındakını buyurub çağırmaqdan həzz alsa da, yenə də həyatından narazı idi. Evdə əlini ağdan-qaraya vurmayan baldızım, hardasa bir zərrə toz görəndə elə qıyya çəkirdi ki, elə bil ətini kəsirdilər. Bu qaçhaqaç və qovhaqovda əziz balamı doyunca öpüb əzizləməyə zamanım olmurdu.

Beləcə, bir il gəlib keçdi...

Ömərin doğum günü idi – mənim üçün dünyanın ən gözəl və ən sevincli günü. Evdəki əhval ruhiyyəyə baxmayaraq şad və gümrah idim. Erkəndən qalxmış,

oğlumu yedirtmiş, evləri yığışdırmlşdım. Təkcə tozsoranı işə salmamışdım, çünki Sonay hələ də yatırdı..

Oğlumun şərəfinə cürbəcür yeməklər hazılamaq üçün həvəslə mətbəxə keçdim.

Qonaq gözləmirdik. Əmir atasına hələ də yas saxlayırdı, ona görə də kimsəni dəvət etməmişdi. Mənim valideynlərim isə nə zaman idi ki, bacımla birgə İzmirə getmişdilər və deyəsən Homerin vətənindəki həyatlarından məmnun idilər ki, qayıtmaq barədə hələ bir söz demirdilər.

Yeməklərə başım qarışdığından vaxtın necə keçməsindən xəbərim olmadı. Əllərimi yuyub tozsoranı işə saldım. Saat dördün yarısı idi, səsə yuxudan duran Sonay mənim ünvanıma xoşagəlməz sözlər yağdıraraq vanna otağına keçdi.

- Bu nə zamanın ev təmizləməyidi?

Arxamdan gələn çır səsə geri döndüm.

- Bitirirəm artıq.

Tozsoranın səsinə görə bir qədər uca səslə dediyim bu sözləri Sonay deyəsən ayrı çür anladı.

- Sən mənə qışqırırsan?

Artıq onun hərəkətlərinə alışqan idim...

- Qışqırmıram.

- Demək istəyirsən ki, mən karam, hə?

Bunu deyən Sonay tozsoranı hikkəylə şəbəkədən ayırdı.

Bu məqamda qapının zəngi çalındı. Əmir idi. O, əllərində iri bir tort və böyük oyuncaq ayı, sevinclə içəri keçdi:

- Bunlar mənim balama çatacaq, - dedi və üzümdən öpərək əlavə etdi, - Oğlumuzun doğum günü mübarək, canım!

Əmir gümrah görünməyə çalışsa da yorğun olduğu hiss olunurdu. O, gözlərilə Öməri axtardı.

- Bəs mənim oğlum hanı?

- Biz hələ söhbətimizi bitirməmişik!

Əmirin sevinci üzündəcə dondu.

- Yenə nə olub? - deyə astadan soruşdu.

Sonay bu dəfə qardaşına çəmkirdi:

- Əmir, bəlkə sən bu bədbəxtə insanla necə danışmaq lazım olduğunu öyrədəsən?

Mən özümü saxlaya bilmədim:

- İnsanla danışmağı mən bacarıram!

Sanki Sonayın başına bir qazan su tökdülər.

- Deməli mən insan deyiləm, hə? Çox sağ ol, ay qardaş! Bu da sizin mənə hörmətiniz! Çox sağ olun!

Sonay dizlərinə döyərək gözlərinin on yerindən tökdü.

Əmir hər zamankı kimi, yenə də bu oyuna gəldi.

- Sarmad! Sən mənim bacımla nə cür danışırsan?

- Əmir!..

Sonay sözümü ağzımda qoydu:

- Görürsən, görürsən? Mənim günüm budu! Mən bu evə gələli adam yerinə qoyulmuram!

Sonay hıçqıraraq yerə çökdü.

- Sonay! – dedim. – Özünü ələ al!

Əmir hirslə yumruğunu divara çırpdı:

- Bəsdi! Heç olmasa bu gün! Bəsdi!

Sonay durub öz otağına keçdi və hikkəylə qapını çırpdı.

Əmir divanda oturmuşdu. Hirsindən əlləri əsirdi. Mən sakitcə süfrə açırdım. Oğlumun xətrinə özümə söz vermişdim ki, Sonaya bu günkü günü məhv etməyə imkan yaratmayacam. Lakin onun otağından gələn qarğışlar və

ah-nalələr sözümün üstündə durmağımı çətinləşdirirdi. Yalvarıcı nəzərlərlə Əmirə baxdım, o isə durub otaqdan çıxdı.

Bir az ara sakitləşdiyində stol arxasına əyləşdik. Əmir, oğlumuzu kiçik stulda yanında oturtmuşdu. Hər şeyi unudaraq iştahla yeyir və tez-tez qürurla Ömərə baxırdı. Yeməklər həqiqətən də əla alınmışdı. Hərçənd ki, baldızımdan tərif eşitməyim mükün deyildi, lakin onun səssiz və davasız yeməyi də bəs idi.

Bir azdan, çay stolu üçün hazırlıq görməyə mətbəxə keçdim. Əmirin sevdiyi kimi, kəklikotulu çay dəmləyib stəkanlara süzdüm və əlimdə sini otağa keçdim. Heç iki addım atmamış nəyisə tapdaladığımı hiss etdim.

- Elə bil ayağımın altında nəsə qaldı, - dedim.

Elə bunu demişdim ki, Sonay qıyya çəkərək özünü ayaqlarımın altına atdı.

- Vay mənim sırğam! Bu gün bütün günü onun bir tayını axtarmışam. Gözün kordu sənin?

Qorxumdan ayaqlarım əsdi: Sonayın sal qızıldan yumru şar şəklində sırğaları vardı, dediyinə görə anasının yadigarı idi. Əgər tapdaladığım o yadigarın bir tayı idisə... Amma, mən otağı yenicə təmizləmişdim, necə olmuşdu ki, onu görməmişdim? Bu mümkün deyildi.

Yerimdəcə donub qalmışdım, addım ata bilmirdim.

- Ay bədbəxt, nə baxırsan?

Sonay bunu deyib hirslə məni itələdi ki, yerə düşəni qaldırsın. Amma dəhşətli bir şey baş verdi – mən tarazlığımı itidim və üç stəkan isti çay onun kürəyinə töküldü.

Bu artıq faciə idi. Sonayın çıxartdığı səsdən dəhşətə gəldim:

- Yandııım, yandım! Ay Allah, yandım!

Ömər qorxusundan bərkdən ağlamağa başladı. Səsə, o biri otağa telefonla danışmağa gedən Əmir qaçıb gəldi.

Aman Allah! Sonayın mənə dediyi sözlərdən, söyüşlərdən ətim ürpəşirdi. Onu vanna otağına aparıb soyuq suyun altına tutmaq və əynindəki köynəyi çıxarmaq istəyirdim. Amma Sonay dəliyə dönmüşdü. Məni var gücü ilə itələyib divara çırpdı, lakin indi ondan inciməyin zamanı deyildi.

- Sən qəsdən elədin, ifritə! Öldürəcəm səni!

Sonay canının ağrısını unudub bağıra-bağıra saçlarımı yolmağa çalışırdı.

Əmir də onu çəkib suyun altına apara bilmirdi. Sonay müqavimət göstərir, bununla özünə daha da pis edirdi. Mən mətbəxə qaçıb buzluqdan bir qab buz gətirdim. Sonay qışqırırdı:

- Əmir, o qəsdən elədi! Sən görmədin, o qəsdən elədi!

O dəli kimi bağırır, əl-qol atırdı. Təhqirlərinin və qarğışlarının həddi-hüdudu yox idi. Hər şeyə rəğmən, bu anda ona yazığım gəlirdi.

- İfritə! Elə bilirsən ki, bir uşaq doğmusan deyə, hər şey edə bilərsən?

- Sarmad, inana bilmirəm! Sənin necə əlin gəldi?

Qulaqlarıma inanmadım. Elə bil ki, ayaqlarımın altından yer qaçdı. Gözlərim doldu.

- Əmir, sən nə danışırsan? Mən belə şeyi necə qəsdən edə bilərəm? O məni itələdi deyə sini çevrildi.

Sonay bar-bar bağırdı:

- Yalançı, həyasız! Allah sənə lənət eləsin!

- Mən düz deyirəm! – yalvarıcı baxışlarla Əmirə baxdım. Onun üzü sanki yadlaşmışdı.

- Sən nə kişisən? Arvadına gücün çatmır? Qorxağın biri qorxaq!

- Sakit ol! – Əmir bacısına səsini qaldırdı.

- Vay! Yanan da mən, yaman da mən? Bacını şikəst elədi! Ay qorxaq, sənin yerinə kim olsaydı, onu çoxdan öldürmüşdü!

- Bəsdi! – deyə yalvardım. – Dözə bilmirəm!

- Sarmad!

- Bəsdi!

- Oy-oy-oy! Yazıq canım, oy! Yanıram, ay Allah!

- Susun!

- Vur da, vur! Əllərin yoxdu? Kişi deyilsən? Vur da!

Artıq ağız deyəni qulaq eşirmişdi. Qorxusundan az qala bağrı yarılan Ömərə də fikir verən yox idi. Səslər bir-birinə qarışmışdı. Və birdən... Əmir əlini qaldırdı... Qulaqlarım uğuldadı. Gözlərimdən sanki od çıxdı. Hər şey dumana büründü...

***

"Hörmətli sərnişinlər! Təyyarəmiz Bakı hava limanına enməyə hazırlaşır. Zəhmət olmasa, qoruyucu kəmərlərinizi bağlayın və oturacaqları şaquli vəziyyətə gətirin!"

Bəli, biz təyyarədəyik – Ömərim və mən. O, qucağımda yuxuya gedib, yuxuda hərdən-bir gülümsəyir.

"Təyyarəmiz enir..." Mən ancaq indi bu sözlərin fərqinə varıram. Sayılı dəqiqələrdən sonra Bakını görəcəyəm – arzularımın şəhərini, atamın vətənini.

Bütün həyatım gözlərimin önündən gəlib keçir.

Əmirin o hərəkətindən cəmi iki gün keçib... Başım hələ də ağrıyır.

Həmin gecə Əmir bacısını xəstəxanaya aparmişdı. Həkimlər qorxulu bir şey olmadığını söyləmiş, dava-dərman edərək evə göndərmişdilər. Evə döndüklərində, o, nə öz hərəkətinə görə, nə də ömrümün ən gözəl gecəsini məhv etdiklərinə görə, üzr belə istəməmişdi. Və o zaman, mən artıq anlamışdım ki, həyatımı daha bu tərzdə sürdürə bilməyəcəyəm, çünki artıq tükənmək üzrəyəm. Mən sağlam övlad böyütmək istəyirəm, sakitlikdə və rahatlıqda! Sonay olan yerdə isə, bu mümkün olmayacaq!

Artıq mən həyatımın yeni dönəminə başlayıram. Qarşımda duran suallar cavablardan daha çoxdur. Lakin əminəm ki, artıq, baş verənlərdən pis heç nə olmayacaq! Əmir mənim haraya getdiyimi hələ ki, bilmir. Nə hiss edəcək, nə düşünəcək, məni axtaracaqmı... – bilmirəm! Yataq otağımda pəncərənin önünə Bakının rəsmini qoymuşam, bəlkə də başa düşəcək, bəlkə də yox...

Mən onu hələ də sevirəm, amma son bir ildə yaşadığımız həyat – həyat deyildi. Öz günahlarımı da artıq çox yaxşı anlayıram. O, bizi arayıb tapsa, mən onu bağışlayacağam, çünki biz ailəyik. Və əgər bu olsa, mən bir daha öz ailəmə kənar adamın müdaxilə etməsinə imkan verməyəcəm, bütün gücümlə, qurub yaratdığımız hər şeyi qoruyacağam!

Təyyarəmiz enib. Ömərimlə birgə çıxışa doğru gedirəm. Xəfif və ilıq bahar küləyi üzümüzə vurur, oğlum ayılır. Gözlərini açdığında ilk gördüyü - parlaq Bakı günəşidir.

Hələ bilmirəm, yeni həyatım necə olacaq. Amma, ümid edirəm ki, məhz burada öz itirilmiş rahatlığımı tapacağam.

Ümid edirəm ki, Bakı bir zamanlar atamı asanlıqla buraxdığı kimi, bizi də eləcə, asanlıqla qəbul edəcək. Gələcəyə ümid edirəm!

İstambul, 2011

KÖHNƏ ALBOM (Hekayə)

“Salam, əzizim El! Çoxdandır səndən heç bir xəbər ala bilməmişəm. Tez-tez yadıma düşürsən, uşaqlığımızın o qayğısız və xoşbəxt günləri üçün burnumun ucu göynəyir...

Dünən, nə vaxtdan bəri axtardığım məktəb albomum əlimə keçib. Köhnəlib... Elə bilirdim ki, yeni evə köçən zaman itirmişəm onu. Tapanda elə sevindim ki! Həvəslə əski şəkillərimizə baxmağa başladım. Birinci sinifdən son sinfədək – bütün həyatımız gözümün önündən gəlib keçdi...

Sanki çoxdan, lap çoxdan baxdığım maraqlı bir filmin kadrları idi bu şəkillər. Zamanın soldurduğu bu rəsmləri uzun-uzun seyr edərək, nəsə yeni bir şey, daha doğrusu unutduğum köhnə bir şeyi tapmağa çalışırdım.

Bax, indi yenə də, bizim köhnə albomumuzu vərəqləyirəm. Baxıb heyrətə gəlirəm - zaman bizlər neçə də dəyişir...

...Bax burada birinci sinifdəyik, sən və mən, yanaşı oturmuşuq. Hər ikimizin uzun hörükləri, ağ bantları... Mən obyektivə ürkək-ürkək baxıram, sən isə əksinə, şən-şən gülümsəyirsən.

Burda isə, Əlifba bayramındayıq. Başımızda kartondan düzəldilmiş taclar var: mənimkində İ hərfi, sənինkində isə D hərfi yazılıb. Xatırımdadı, özümüz bu hərfləri istəmişdik müəllimdən, sən demişdin ki, bu İki Dost deməkdir.

Bu şəkildə isə artıq dördüncü sinifdəyik. Bütün sinif uşaqları ilə. İbtidai sinfin buraxılış günü bayramındayıq.

Hamımız səliqəli və təmtəraqlı geymişik: qızlar - ağ kofta, qara ətək, oğlanlar isə ağ köynək, qara şalvar. Qəribə də olsa, mən bu günü aydınlıqla, bütün təfərrüatı ilə xatırlayıram. Yadımdadır, ilk müəlliməmiz Olqa Nikolayevna – o ciddi və təmkinli qadın - həmin gün yaman kövrəlmişdi. Şəhadətnamələrimizlə birgə, yazdığımız ilk imlaları və çəkdiyimi ilk rəsmləri bizə təqdim edəndə göz yaşlarını gizlətməyərək, bir-bir üzümüzdən öpmüşdü.

Hər şey elə dəyişir ki! Sən – mehriban və səmimi rəfiqəm, zamanla, hər kəsin diqqət mərkəzində olan cazibədar və şıltaq gənc qıza çevrilirdin. Məktəbdəki oğlanların əksəriyyəti sənə vurulmuşdu. Rəfiqən olduğum üçün, sənə çatacaq sevgi məktubları mənə verirdilər. Heyranlarının sayı gündən-günə artırdı. Əvvəllər, hər an səni izləyən yad nəzərlərdən, addımbaşı deyilən tərifl ərdən utanır, qıp-qırmızı olardın. Və bu xüsusiyyətin çox xoşuma gələrdi.

Xəbərin yoxdu ki, sən öz zehnin, savadın, gözəl yaddaşın, və özünü sevdirə bilmək qabiliyyətlərinlə həmişə mənə örnək olurdun. Düzdür, sənin lə yanaşı mən sanki yox kimiydim, heç kimin diqqətini çəkmirdim, amma bu məni elə də narahat etmirdi. Çünki, səni bir rəfiqə kimi deyil, bacı kimi sevirdim.

Aylar, illər keçirdi, böyüyürdük.

İndi bir şəklə baxıram: sən, mən və paralel sinifdən olan iki oğlan. Onların hər ikisi səni sevirdi.

Əzizim El! Sənin xarici görünüşünlə birgə daxili aləmin də necə dəyişirdi! Qocaman tarix müəllimimiz

(yadımdadı, bəzən sərkərdələrin adını dolaşıq saldığı üçün, sən ona "huşsuz" deyirdin) bir aforizmi tez-tez işlədərdi: *«Honores mutant mores, sed raro in meliores».* Bəli, sən yavaş-yavaş vurğunlarının baxışlarına, komplimentlərinə, qulluqdarlığına öyrəşirdin. Hətta, kiminsə sənə məhəl qoymaması, diqqət göstərməməsi səni özündən çıxarırdı. Adətən, sənin dediyinə görə, belə oğlanlar şir bürcündən olurdu. Qoroskoplarla, bürclərlə yaman maraqlanırdın, və İlahi, "şir"lərə necə də nifrət edirdin! Necə olur-olsun onları özünə məftun edib qələbə çalmaqdan həzz alır və özünə "şirləri ram edən qadın" deyib gülürdün.

Düzünü deyim ki, getdikcə sənin davranışların mənim xoşuma gəlməməyə başlayırdı, amma susurdum, çünki sən tənqidi sevmirdin. İndi başa düşürəm ki, heç də düzgün hərəkət etməmişəm... Bu dostluq deyil! İnsan öz dostu ilə yalnız həmfikir yox, həm də dürüst olmadır! Yeri gələndə, çatışmayan cəhətlərini üzünə deməli, səhvlərini göstərməlidir! Mənsə, bunları etməyə qorxurdum... və indi buna görə utanıram...

Yadındadırmı, onuncu sinifdə oxuyarkən, bir dəfə ədəbiyyat müəlliməmiz xəstələnmişdi, dərsimiz boş idi. Sinif uşaqları ilə oturub "evlilik" mövzusunu müzakirə edirdik. Onda sən öz sözlərinlə hər kəsi mat qoydun; dedin ki, ərin sənin xətrinə dəysə, şəksiz-şübhəsiz, onun başını yararsan. Bəlkə də bu sənin yersiz zarafatın idi, bilmirəm, amma elə sərt və qətiyyətlə demişdin ki, hamı sənə ikrahla baxmışdı. Sonra da demişdin ki, heç kim sənə ev işləri gördürə bilməz, yemək bişirmək, paltar yumaq – sənincün deyil. Bu ancaq qulluqçu işidir. Sənsə - xüsusi insansan,

yalnız yüksək vəzifələrdə çalışmaq, məşhur olmaq üçün dünyaya gəlmisən. Özünü "taleyin ağası" adlandırdın.

O zaman mən dəhşətə gəldim və sənin təkəbbür və özündənrazılıq kimi pis xüsusiyyətlərini kəşf etdim. Lakin nə olur-olsun, özümü inandırmağa çalışırdım ki, bu müvəqqətidir və sən dəyişəcək, yenə də əvvəlki - sevdiyim və hörmət etdiyim insan olacaqsan. Ah, necə də yanılırammış!

Bax, həmin bu şəkil! Buraxılış sinifdə çəkilmişdi. Yenə də sən və mən, amma... sən üzünü yana tutub qürurla harasa baxırsan. Elə durmusan, sanki, yanaşı şəkil çəkdirməklə, mənə nəsə böyük bir yaxşılıq kimi...

Və elə bu ildən, sən özünə yeni bir əyləncə tapmışdın – sinfimizdəki iki sakit və fağır qıza lağlanmaq...

Düzdür. Onlar sənin kimi əlaçı deyildilər, amma pis də oxumurdular. Sənə neyləmişdilər, bilmirəm, amma müvafiq şərait düşən kimi, həyatlarını çəkilməz etmək üçün əlindən gələni əsirgəmirdin. Gah vurduqları ətrin iyindən ürəyinin bulandığını deyib, burnunu tutub otaqdan çıxır, gah geyimlərinin dəbdən düşmüş olmasına lağ edir, gah da saç düzümlərinə gülürdün.

Əlbəttə! Bu planda sən ideal idin: sənin ətirlərin bahalı və başgicəlləndirən olurdu, paltarların hər zaman mütənasib bədəninin üstündə gözəl oturur, uzun, ipək saçların isə sənə daha artıq yaraşıq verirdi. Lakin bu sənə ixtiyar vermirdi ki, özünə bənzəməyənləri incidə, könüllərini qırasan! Dəfələrə, sənin qabalıqlarından sonra, o bədbəxt qızların ağladıqlarının şahidi olurdum. Dəfələrlə sənin - ən yaxın rəfiqəm bildiyim insanın yerinə utanıb xəcalət çəkirdim.

Əgər bilsəydim ki, qəlbin də hərəkətlərin kimi çirkindir, and olsun Allaha ki, bir an belə tərəddüd etmədən, sənlə bütün əlaqələri kəsərdim. Lakin mən ayrı cür düşünürdüm, mən inanırdım ki, sənin etdiklərin – bizim də günahımızdır! Bizim - səni bütləşdirib tərifl ərlə gözə ucaldanların! İnsanın əqidəsi nə qədər yüksək olur-olsun, bu yaşda, gənckən "ulduz xəstəliyi"nə qarşı dura bilməzdi, sən də bacarmadın...

Bəli, dostum! Səni hər gün tərifləyib başqa şagirdlərə nümunə göstərən müəllimlərin, hər istəyini yerinə yetirib, oxşayıb əzizləyən valideynlərin, diqqətləri və məhəbbətlərilə göz açmağa aman verməyən heyranların və... yanında ola bilmək üçün hər sözünlə razılaşan, bəzən hiddətlənmək əvəzinə susan rəfirələrin – heç də səndən az günahkar deyildilər!

Alicənab və mədəni insanlar olan valideynlərini çox yaxşı tanıyırdım. Və bilirdim ki, son vaxtlar sən onları da kədərləndirirsən. Düzdür, əvvəlki kimi yenə də yalnız əla qiymətlər alır, onların sevdiyi kimi, çoxlu kitab oxuyur, klassik musiqilər dinləyir, səliqə-səhmanına hər zamankından da artıq diqqət yetirirdin. Lakin... getdikcə ata-anandan uzaqlaşmış kimiydin... soyuqluğunla, biganəliyinlə, laqeydliyinlə... Özünüsevən Nərgizgülü kimiydin - səni səndən başqa heç kim maraqlandırmırdı...

Bir dəfə dedin: "Mənimlə olmayan mənə qarşıdır!" Bu sözləri mənəmi eşirdirirdin? Bəlkə də yox, amma bununla da, sənlə çoxillik dostluğumuza son qoydun. Və mən səni tərk etdim. İllər öncə, birinci sinfə gəldiyimiz ilk gün, tanış olub əlimdən tutan əziz rəfiqəm bunu hiss edərdi,

sənsə hiss etmədin, çünki artıq o sən deyildin. Acınacaqlısı da elə bu idi. Sən öz-özündən uzaqlaşdığın kimi, mən də eləcə, hiss etdirmədən səndən uzaqlaşdım.

Tanış olduğumuz o sentyabr günündə qorxmuş, həyəcanlanmış, bu qədər müəllimin və uşağın içində özümü itirmişdim. Sənsə bunu görüb arxayınca mənə yaxınlaşmış, adımı soruşmuşdun. Biz əl-ələ tutub sinfə birlikdə girmiş və bir parta arxasında oturmuşduq. Beləcə başlayan 11 illik dostluğumuzun bitməsini qəbul etmək çox ağrılı idi, El, çox ağır!...

Bircə onu bil ki, nə olur-olsun, səni heç zaman unutmayacam. Sən özün də bilmədən mənə çox şeylər verdin: dostluq hissi, əvəzsiz məktəb xatirələri, ən başlıcası isə - həyat dərsi! Mən başa düşdüm ki, dünyada ən vacib şey – özünü itirməməkdir! Və, həm də anladım - kimdir Dost! Səndən öndə, ya da arxada gedən insan Dost deyil. Dost - hər zaman səninlə yanaşı addımlaya biləndir!

Bütün bunlara görə, əzizim, sənə çox minnətdaram!

Ümid edirəm ki, heç olmasa hərdən bir məni xatırlayırsan. Bu sərt və qaçılmaz gerçəkliyi səninlə bölüşdüyümə görə məni bağışla! Hərçənd ki, bunu heç zaman nə eşitməyəcək, nə də oxumayacaqsan. Çünki, bu, köhnə məktəb albomumuzu vərəqləyərkən sənə yazdığım xəyalı məktub idi...”

Moskva, 2010

O
(hekayə)

O evin tək uşağı idi, biz isə beş nəfər. Bizimlə bir olmaq, əylənmək onun çox xoşuna gəlirdi. Anamı anası, bacılarımı bacısı bilirdi. Böyük qardaşımdan bir az qorxurdu, amma kiçiyin başına oyun açırdı. Bizim ev onun da eviydi sanki. Bacısız-qardaşsız olmağını, təkliyini bizdə unudurdu...

O - mənim rəfiqəm idi. Yox, səhv dedim, rəfiqə elə olmur... Doğmadan doğma idik biz. Sanki iki yox, üç bacım vardı. Orta məktəbin beşinci sinfindən birlikdə oxumuş, eyni sənəti seçərək ali məktəbə daxil olmuşduq. Qonşu idik həm də.

Günümüz bir keçirdi. Universitetdəki çətin dərslərindən sonra asta-asta parkı dolaşar, evə qayıdarkən kitab dükanlarına dəyər, sonra isə könülsüz ayrılardıq. Və… evə çatan kimi, günün yarıdan çoxunu birlikdə olmamış kimi darıxıb zəngləşərdik. Çox vaxt, əlimizdə telefon pəncərənin önündə durub aynadan bir-birimizə baxa-baxa danışardıq... O mənə zarafatla Həyatım, mənsə ona Gözümün işığı deyərdim.

Atası yox idi. Ana-bala ikisiydi. Anası məni öz qızı kimi sevirdi, mən də onu ikinci anam kimi.

İmtahanlara da birgə hazırlaşardıq, çox zaman onlarda. Çünki, bizim hay-küylü evimizdən fərqli olaraq, onlarda sakitlikdi. Yorulanadək dərs çalışar, sonra özümüzə yemək hazırlayar, deyə-gülə yeyərdik.

Yastıq döyüşünə çıxardır bəzən. Anası isə: “Sizi aç saxlamaq lazımdı, yeyən kimi evi uçurdursunuz”, - deyə zarafat edərdi.

Gecələr döşəmənin üstünə halsızca yıxılıb bir-birimizi dümsükləyər, güzgü ilə pəncərədən düşən elektrik lampasının işığını yaxalayaraq, tavanda işıqlı həlqələr oynadardıq.

Uşaqlıqdı... bilirəm. Amma necə də xoş, necə də qayğısız günlərdi...

İmtahanlarda istifadə edəcəyimiz rus dilindəki dərslikləri qrupumuzdakı kənd uşaqları üçün tərcümə edərdik. Gah mən deyərdim o yazardı, gah da əksinə. Qalaq-qalaq tərcümələrimiz vardı. Bəzi müəllimlər bunların dərslik halına salınmasını məsləhət görmüşdülər hətta.

Sevinirdik. Xoşbəxtdik. Qarşıda uzun bir ömür vardı...

Arzularımız da o qədər sarmaş-dolaş idi ki... Təhsilimizi bitirdikdən sonra birlikdə işləmək, ailə dostu olmaq, övladlarımızı da birgə böyütmək istəyirdik. İstəyirdik ki, onlar da bizim kimi ayrılmaz dost olsunlar.

Amma o yalançı oldu. Mənim onu necə sevdiyimi bilə-bilə... Məni tərk etdi…

Yalnız bir gün mənsiz evə qayıtdı. Bircə gün... Daha doğrusu qayıtmadı.

Binalarının girəcək qapısında bir mobil telefon oğrusunun zərbəsinin qurbanı oldu.

Tam bir həftə pəncərə önündə durub bizim binamıza girəcəyini gözlədim. Yemədən... yatmadan... Nömrəsinə göndərdiyim sms-lər cavabsız qaldı.

Mənim bir yarım yox oldu o gündən, gözlərimin işığı dediyim bacıdan artıq sevdiyim bir insan yox oldu. Mən daha əvvəlki mən ola bilmədim, bilməzdim də... Həyatın ədalətinə inamım sarsıldı, gözəlliyi gözümdən düşdü. Arzularımın onunla bağlı qismi öldü.

…Köçmüşük oralardan. Dörd il keçib. Düz dörd ildir ki, insanlara həyat vermək, sağlamlıq bəxş etmək istəyən bir qız yoxdu dünyada - mənim qəfiqəm...

Moskva, 2009

SEVGİDƏN HEÇLİYƏ... (Hekayə)

Q, yarıqaranlıq otaqda, açıq pəncərənin önündə oturmuşdu. Xatirələr baş alıb gedirdi...

Bir vaxtlar, onlar bir-birini ağlasığmaz dərəcədə çox sevirdilər. Gözəl və ideal bir çütlük!

Çoxları onlara həsəd aparırdı: öz eşqinə qovuşmayanlar, qovuşub ayrılanlar və hələ sevginin nə olduğunu bilməyənlər...

Amma bu çoxdan olmuşdu... Bəzən hətta **Q**-ya elə gəlirdi ki, xatirladıqlarının heç biri başına gəlməyib, hamısını özündən uyudurub.

...Onlar soyuq bir payız günündə, təsadüfən qarşılaşmışdılar və elə o andan bir-birinə vurulmuşdular, dəlilər kimi...

İlk baxışdan məhəbbət! – hansına ki, **K** hər zaman inanmışdı, **Q** isə qəlbinin ən mübhəm guşələrində arzulamışdı.

K onu mələk sanırdı, onun gözündə ən gözəl və ən mehriban qadın idi; başına dolanır, balaca ağ əllərini dönə-dönə öpürdü. **Q** isə, onu öz xəyallarının qəhrəmanı hesab edirdi – xeyirxah və güclü.

Sevgilərini sözlə izhar etməyə gərək yox idi, baxışları sözlərdən daha dolğun və daha mənalı idi. Bir-birinin gözündə dünyanı görürdülər. Bir-birindən başqa da heç kimsəni görmürdülər. Birlikdə keçən saatlar an kimi uçub gedirdi, ayrılıq dəqiqələri isə illərdən də uzun olurdu. Hər şey nağıllardakı kimi ecaskardı! Əslində, elə bu özü bir

nağıl idi – onların ülvi və səmavi məhəbbətləri haqda nağıl!

Amma bütün bunlar keçmişdə qalmışdı... Nə məhəbbət vardı, nə inam, nə ümid... Ümid isə... ən sonda yox olduğuna görə...

Qüssə və yorğunluq **Q**-nın bütün varlığına hakim idi. Kövrək qəlbini məngənətək sıxan amansız sükutda əyləşib düşünürdü...

"Gənclik! Ömrün bu çağında, gələcək – cazibədar, xumar bir ulduza bənzəyir. İnsan, bütün sərhədləri aşa biləcək, bütün çətinliklərin öhtəsindən gələ biləcək bir güc hiss edir özündə. Hər doğan gün əvvəlkindən daha maraqlı olur. Əbədi məhəbbətə inanır və onun gəlişini gözləyirsən. İçində elə bir duyğu olur ki, sanki sənə heç bir bədbəxtlik üz verə bilməz; nəsə olsa belə, sonu mütləq yaxşılıqla bitəcək. Düşünürsən ki, həyata hansısa böyük bir missiyanı yerinə yetirməyə gəlmisən. İşıqlı sabaha, həkimlərin xərçəng xəstəliyinin dərmanını tapacağına, alimlərin zaman mühərrikini icad edəcəyinə, yadplanetlilərin bizimlə əlaqə yaradacaqlarına və daha nələrə inanırsan...

Amma zaman ötür, günlər keçir, illər bir-birini əvəz edir... və getdikcə anlayırsan ki, düşündüyün kimi deyil..., hər şey daha mürəkkəb, daha qəlizdir. Maraqsız günlər, cavabsız arzular, yerinə yetməyən vədlər və unudulan sözlər də var həyatda...

Ən doğma, ən yaxın bildiyin adam səndən uzaqlaşa, yadlaşa bilər. Bu birdən-birə olmur ki..., nə bir günə, nə bir ilə... Yeksənəkliklər üzündən diqqət yayınır, azalır, getdikcə həyata rəng qatan şeylər yoxa çıxmağa başlayır:

parklarda gəzintilər, birlikdə konsertlərə, filmlərə getməklər... Bunların yerini gündəlik qayğılar, məişət problemləri tutduqca, hər şeyin rəngi dəyişir, bozumtullaşır...

Çaldığın mahnılar daha onu əfsunlaya bilmir, səni qucaqlayıb öpüşlərə qərq etmir.... sadəcə mürgüləyir... Söz-söhbətlər, mübahisələr çoxalır... İncikliklərі unudub barışa bilmək, getdikcə daha çox zaman aparır. Hər acı söz iti bıçaq kimi ürəyi daha dərin yaralayır...

Ən dəhşətlisi odur ki, bir gün ayılıb görürsən ki, tanıdığın, sevdiyin insan daha yoxdur, onun yerini heç zaman sevə bilməyəcəyin başqa birisi tutub. Bir zamanlar öz mehribanlığıyla sənə qüvvət verən, hüzur gətirən doğma gözlərə baxdıqda soyuq bir boşluğa düşürsən. Buz baxışlar zəhər kimi iliklərinədək işləyir, damarlarına dolur, bütün zərif hisslərini amansızca dondurur... və... Sevgi ölür..."

Q bunları düşündükcə, açıq pəncərədən içəri boylanan külək, onun ipək tellərini oxşayır, ilıq nəfəsiylə yaşlanmağa başlamış gözəl üzündəki narın göz yaşlarını qurutmağa çalışırdı.

Bu mümkündürmü? Sevgi də ölə bilərmi?

Min illərdir ki, insanlar bu suala cavab axtarırlar. Sakit axşamlarda, həyat səhifələrini vərəqləyərkən, bizi tərk edənləri, öz xoşumuzla itirdiklərimizi və muradına çatmadıqlarımızı düşünürük. Yuxusuz gecələrdə, buz kəsilmiş yataqda uzanaraq sınqın könlümüzün şikayətini dinləyir, bir vaxtlar bizə qanad verən, içimizi titrədən, misilsiz sevinc gətirən keçmişləri xatırlayırıq.

Bəli... Bəzən məhəbbət insanın bütün instinklərini özünə tabe edir, görməyə, eşitməyə, fikirləşməyə qoymur. Məhəbbət, heç də düşündüyümüz kimi abstrakt məfhum deyildir! O – canlıdır; doğulur, yaşayır və ölür... O, biz ona öyrəşən zaman, laqeyd və biganə olan zaman ölür. Məhəbbət vərdişi sevmir, çünki vərdiş – sükunət, adilik və soyuqluq deməkdir. Məhəbbətsə - alovdur, ehtirasdır, hərəkətdir! O, dəyişkənliyilə bir haldan başqa hala keçən maddəni xatırladır və bu müxtəlifliyilə bizi gah sevinməyə, gah da qəmlənməyə vadar edir.

Deyirlər ki, məhəbbətdən nifrətə bir addımdır. Bəlkə də... Bəs, biganəliyə necə? Sevgi ölüncə onun yerini nə tutur? Nədir bu boşluğu dolduran? Nifrətmi? Ağrımı? Bəlkə də, elə bu boşluqdur ruhumuzu çəkib sonsuz qaranlıqlara aparan?

Q, nə bu suallara cavab, nə də yaşamaq üçün özündə güç tapa bilirdi. Bircə onu bilirdi ki, bir zamanlar onlar bir-birini çox sevirdilər və çoxları onlara həsəd aparırdı: öz eşqinə qovuşmayanlar, qovuşub ayrılanlar və hələ sevginin nə olduğunu bilməyənlər...

Moskva, 2012

NƏ ZAMAN Kİ...

Nə zaman ki, bir gün unudularsan,
Səfalət kölgəsi adına düşər.
Etdiyin səhvlərə peşman olarsan,
Varların, yoxların yadına düşər.

Səni xar eləyən bütün əməllər
O, məğrur başını aşağı salar.
Amma nə dəyişər... ötüşüb illər...
Geçikmiş etiraf özünə qalar.

Geriyə qayıtmaz bircə an belə,
Çirkabdan təmizə çıxılmaz daha.
Batdıqca batarsan, sən bilə-bilə,
İtirdiyin zaman dönməz sabaha.

Ömrünə-gününə buraxma şəri,
Peşman olmağının yoxdur dəyəri!

2009

QƏLBİM

Dəli könlüm üsyan edir,
Hey çırpınır, hey əsir.
Keçmişini buraxmadan
Gələcəyə tələsir.

Ay ürəyim, nədir yenə
Bu hüzünlər, bu qəmlər?
Hər şey keçdi, hədər oldu,
Geri dönməz gedənlər!

Duyğuların dəniz idi...
Nə umurdun sevgidən!
Gəl unudaq, davam edək
Yaşamağa yenidən.

Geridə qoy olanları,
Coşsun gənclik həvəsi.
Unutma ki, dəli kimi
Sevmək olmaz heç kəsi.

2010

BƏLKƏ CƏNNƏTDƏ DƏ AĞLAYACAĞAM...

Marina Svetayevanın xatirəsinə!

Hər dəm korun-korun yanan ocağam,
Qəlbimi Tanrıma açacağam mən.
Bəlkə cənnətdə də ağlayacağam,
Ruhumu incidən xatirələrdən.

Bəlkə də bir dəli hıçqırıq ilə,
Yadıma salacam qəmli anları.
Yanan ürəyimi götürüb ələ
Tökəcəm içimdə saxlananları.

Zəhərli kəlmələr qəlbimi qırıb...
Tanrıma nə qədər şikayətim var!
Dilsiz arzularım köksümü yarıb,
Sınıq taleyimdən uzaqlaşıblar...

Ötüb keçənləri salıb yadıma,
Sənə dil deyirəm hey için-için...
Yanıb qovruluram mən öz oduma
Eşqimi yadlara verdiyim üçün.

Acı xatirələr - sisdi, dumandı...
İzləyir yolumu bir qara kölgə.
Gözlərim quruyub gör nə zamandır,
Cənnətdə ağlamaq asandı bəlkə!

2013

BAHARDA ÖLMƏK İSTƏRƏM

Mirra Loxvitskayanın xatirəsinə

Baharda ölmək istərəm,
Yerin canı oyananda;
Çiçəklərə şeh damanda,
Aləm nura boyananda.

Baharda ölmək istərəm,
Yay ayları gəlməmişdən.
Yayda isə Günəş olub -
Sənin üçün doğaram mən.

Ürəyini isidərəm,
Öncələri olan kimi.
"Məni" Sənə həsr edərəm,
Gizləmədən sevdiyimi.

2013

***

İnanma hər sözə,
Boş olur sözlər!
Hər dedi-qodunu vecinə alma.
Aləmdə az deyil riyakar üzlər,
Hər axan yaş deyil –
Ürəyə salma!

Çox tez unudulur saxta and-aman,
Hətta öz gözünə inanma bəzən...
Ötəri hisslərə kəsilmə qurban,
Unutma bir şeyi:
Dünyada təksən!

2010

***

Bir-bir əl üzdüyün şirin arzular
Yuxuna gəldikcə ağlasan əgər,
Sabaha baxmasan yeni ümidlə,
Dərdini üst-üstə saxlasan əgər,

Könlünə düşməsə bəxtinə düşən,
Gözəl duyğuların solsa-saralsa,
Dünəni gözündən salan qorxular
Səni də bu günün gözündən salsa

Qınama kimsəni - öz günahındı!
İntiqam almağa bəraətin yox!
Demək ki, özünə yoxdu inamın,
Ya da inanmağa cəsarətin yox?!

Uğur gəlib çıxmaz arzulamaqla,
O, alın tərindən çüçərib çıxar!
Sabahı qəlbiylə suvaran insan
Hər kəsin gözünə vüqarla baxar!

2013

PAYIZ GƏLİB

Yenə qızıl payız gəlib,
Yenə düşüb soyuqlar.
Ötüb gedib həyatımdan
Onsəkkizinci bahar.

Payız gəlib... Ağaclartək
Ürəyim də üşüyür.
Solğun günəş yorğun-yorğun
Asimanı bürüyür.

Pəncərəmin arxasında
Gözəl payız rəsmi var.
Göy tutulur, hiss edirəm
Başlanacaq yağışlar.

Nə qəribə sakitlik var...
Solur günün bənizi.
Yada düşür vətənimin
Xoş havası, dənizi.

2009

***

Bizi ortaq eləyən
nələr, nələrimizdi,
yaralı dünənimiz,
xatirələrimizdi...

Gecələr həsrət adlı
sadiq yoldaşımızdı,
ilmələnib çözülən
köhnə yaddaşımızdı...

Ayrılıqdan çatlamış
iki parça qəlbimiz,
bir-birinə dolaşmış
sevincimiz, qəmimiz...

Sabahlardan gizlənən
yuxulu gözlərimiz,
məchulluğa yönələn
əbədi izlərimiz...

Qapısı baqlı qalan
soyuq otaqlarımız...
Bizi dustaq eləyən
Nə var - ortaqlarımız!

2013

***

Çəkilək bir adaya,
Hər tərəf dəniz olsun...
Gülək, qara buludlar
Dönüb ağbəniz olsun!

Çəkilək bir adaya
Yaşıllıqdan don geyək.
Hər dərdə, hər acıya,
Hər xiffətə son deyək!

Çəkilək bir adaya,
Düşünməyək heç kəsi.
Hər gün oyatsın bizi
Qağayıların səsi.

Gizlənək gəmilərdən
Gözdən itincəyədək.
Ayrılmayaq bu yerdən
Ömür bitincəyədək...

...Bizdən sonra, qəlblərə
Qoy yayılsın sədası!
Sevənləri çağırsın
"Sevənlərin adası"!

2011

BİR ƏSR
öncənin
SEVGİ ŞEİRLƏRİ

ANNA AXMATOVA
və

MARİNA SVETAYEVA

***

Nədən ayrılaq ki, düşün bir anlıq!
Əl-ələ, qol-qola gəzirik belə...
Artıq şər qarışır, çökür qaranlıq,
Biz isə dinmirik, susuruq hələ...

...Gələrik kiçicik bir kilsəyə biz,
Kiməsə bəzənib nigah masası.
Yayınar günahkar nəzərlərimiz... -
Niyə yazılmamış bizə bu yazı?!

Sonra məzarlığa gəlib yanaşı
Torpağa çökərik... Tale də bir yük!
Bir otaq çızarsan sən uzaqbaşı,
Hardakı - nə vaxtsa... birgə... ömürlük...

A. Axmatova
Peterburq, 1917

***

Demək, düşünürdün - mən də beləyəm,
Acız qadın kimi ağlayacağam?
Ya da döşənərək ayaqlarına
Hönkürüb yolundan saxlayacağam?

Ya da fal açdırıb bir falçıya mən
(Həyatda belə iş az olur bəyəm),
Caduyla isladıb ağ yaylığımı
Sənə hədiyyətək göndərəcəyəm?

Bil ki, nə iniltim, nə iztirabım
Gəlib catmayacaq sənə bir kərə!
And olsun göylərin cənnət bağına,
Tanrı dərgahına, müqəddəslərə,
Sevdalı günlərin xatirəsinə -
Dönmərəm heç zaman sən olan yerə!

A. Axmatova
İyul 1921

***

İndi, şan-şöhrətdən uzaq düşəli
Necə də hüzünlü, kədərlisən sən.
Kəssə də önümü taleyin əli,
Yenə də doğmasan, yenə əzizsən.

Kabus günlərinin əlacı – şərab...
Günah içindədi gecələrin də.
Ala gözlərindən yağan iztirab
Lillənib boş içki şüşələrində.

Üz tutub bir ucuz ölümə yenə,
Hüzura yetməyə tələsir ürək.
Səsini küləklər gətirir mənə,
Bəxtin gərdişini lənətləyərək...

De sənin yanına necə dönüm mən?
Mən – soyuq diyarda saralan bahar!
Tək səni düşünmək gəlir əlimdən,
Sənsə olanları başından çıxar.

Tanrıya nə desin zəif bir qadın?
Ömür azalsa da azalmır kədər...
Demək ki, sonunda sən də anladın
Ölümdən güclüymüş belə sevgilər!

A. Axmatova
1914

***

O sazaqdan sonra bir isti ocaq
Məni bihuş etdi, sözün doğrusu...
Amma nə biləydim, o gün çalacaq
Qəlbimi, amansız ürək oğrusu.

...Yeni il gecəsi şən idi yaman!
İslaqdı saplağı qızılgüllərin.
Mənimsə içimi bürüyən duman
Kəsmişdi səsini həzin tellərin.

Onu tanımışdım gözəl gözündən,
Fəqət bu deyildi işin çətini, -
Bu günə-sabaha, qorxurdum ki, mən,
Geri qaytaracaq qənimətini...

A. Axmatova
Yanvar 1914

***

Axşamçağı...
Yolum eniş...
Zaman, önümü tutma!
Hələ dünən
Məni sevən
Yalvarırdı: Unutma!

Mənə qalan
Bir küləyin,
Bir də neyin səsidir...
Bulaq üstə
Yol gözləyən -
Qarağac kölgəsidir...

A. Axmatova
1914

***

Sənlə tez-tez görüşürük, bəs nədən
Gecələr də sənsən yuxumun adı.
Bəs o əllər, həmənki səs, o bədən
Nədən yalnız yuxularda doğmadı?
Möminlərin duasıtək səmimi
Neçə incə, gözəl sözlər deyirsən.
Nə yanılıb səhv salırsan ismimi,
Nə ah çəkib ürəyimə dəyirsən...

A. Axmatova
1914

***

Bağlamazdım qapımı bəyaz gecələrdə heç...
Yandırmazdım şamları...
Xəbərin də olmazdı, - əldən düşsəm də yenə
Ayaqüstə qalardım
Mən bütün axşamları...

Dəyişən üfüqlərə
Baxa-baxa solardum...
Sənin səsinə bənzər bir səs eşidən zaman,
Sanki bihuş olardum...

Həyat cəhənnəm ikən,
Son vermişkən hər şeyə,
Yenə də inanardım –
Dönəcəksən geriyə...

A. Axmatova
1911

***

Nə düşünür, nə inciyir,
Nə dalaşır, nə yatıram...
Nə günəşə, nə də aya,
Nə dənizə can atıram!

Evim bürkü, bağçam sərin;
Duyammıram bu fərqi mən,
Əl üzmüşəm arzulardan
Hər bir şeydən didərgin mən...

Sabahları eşitmirəm
Tramvayın sədasını.
Unuduram rəqəmləri,
Ayın, günün sırasını...

Tale kəsib kəndirimi -
Mən bəxtimin köləsiyəm.
Mən – yuxuda gəzən adam,
Mən - kölgənin kölgəsiyəm.

Marina Svetayeva
13 iyul, 1914

***

Eşqimlə bərabər ağrı-acım var...
Əzizlə, mehrinə ehtiyacım var!
Yağışın səsitək xoşdu gülüşün...
Ruhumu oxşayan kəlmələr düşün!
Düşdükcə damlalar islansın zaman,
İllər həsrətdi qəlbimə daman...
Məni də yatırtsın süzülən sular,
Hər kiçik damlanın bir hünəri var;
Tabutum üstünə yağsın, - durulsun,
Atəşim azalsın, gözüm yumulsun.
Gözləyən gözləyib yorulsa belə,
Kimsə ürəyimə od salsa belə
Həm mənə layla de, həm də ki, dinlə:
Eh, sözə nə gərək…, oxşa əlinlə,
Nəvazişinlə...

Marina Sveytayeva
Sentyabr, 1923

ANAMA

Nələr unuduruq zamanla, nələr...
Çox şeyin yox olub silinir adı.
Amma o dodaqlar, o incə əllər,
Gur saçlar hələ də yadımızdadı...

Nə isə yazarkən çəkdiyin o ah,
Yaqut üzüyündə - parlayan hüzün...
Çarpayı başında hər axşam-sabah
Təbəssümlə baxan mehriban üzün...

Bir quş misalıydın – kədərə yoldaş...
Qəlbində yaranın təzəydi yeri.
Düşərdi gözündən iki damla yaş,
Susanda royalın iniltiləri...

Marina Svetayeva
1907-1910

MİXAİL SİNELNİKOV

Şeirlər

Mixail İsaakoviç Sinelnikov
Şairi, tərcüməçi, tənqidçi

Afrika və Asiya dövlətləri universitatinin professoru.
Ədəbiyyat üzrə beş milli Şuranın üzvü: Azərbaycan, Gürçüstan, ermənistan, Tacikistan və Qırğızıstan.
SSRİ Yazıçılar birliyinin və Moskva Yazıçılar birliyinin üzvü.
Rusiya Elmlər Akademiyasının və Petrovski Akademiyasının həqiqi üzvü.
Türkiyə Mədəniyyət və Poeziya Akademiyasının akademiki (Çanaqqala).

21 orijinal poetik toplumun,
Xaqaninin divanı və Şərq poeziyası adlı seçilmiş poetik nümulərin,
və onlarla digər kitabların müəllifi.

Bu günlərdə şairin "Sin Tyurkskaya: Azerbaydjan Severniy i Yujniy v stihah ruskkih poetov" kitabı işıq üzü görüb.
Şair Nəcəf Nəcəfov mükafatına layiq görülüb. Mükafatı, Moskva şəhərində, AYB-nin sədri Anar təqdim etmişdir.

VALİDEYNLƏRİMİN XATİRƏSINƏ

Onların qocalığı
Dövrün qocalığıyla düşmüşdü bir zamana.
Üfüqlər qaralanda
Gəzişirdi əl-ələ bir atayla, bir ana.

Ağarmışdı saçları...
Dolaşaraq bağları,
Onlar yada salırdı Petroqradda yaşanan
o dəhşətli illəri,
sonra beşillikləri -
Ötüb keçən çağları...

Artıq, Orta Asiya olmuşdu vətənləri -
keçmişdən uzaqlarda, gözəl şərq təbiəti.
Bu dünyaya sığmayan,
xəyalpərəst və çılğın bir oğlan haqqındaydı
onların sön söhbəti...

...İndi doğmadır mənə
qocaları ovudan o adi gəzintilər
şirin xəyaldır deyə!
Son baharda getdilər
Tanrının dərgahına,
bürünüb səssizliyə...

YUXU

Tükənmir yuxular yenə bu axşam,
Qızılı boşluqda bir dünyamı var?!
Qəqs edir rəqqasə, əllərində şam,
Uyur bu ahəngə bəyaz sütunlar...

Bu Qanqın suyumu dəlir göyləri?
Bu sitar səsimi inləyir belə?
Bu - mənim ömrümin dəqiqələri,
Pərvəriş tapmamış özünə hələ.

Budur Rusiyanın qəlbinə daman -
Görəcək rəqs edən çılpaq bütləri.
Özümdən aralı düşmüşəm yaman,
Bilmirəm nə zaman dönəcəm geri...

SƏHRA

Səhra qürur duyur tənhalığıyla...
Səhranın özündən başqa nəyi var?!
Gözləri yol çəkir su sorağıyla
Dünya yaranandan, beləcə lal-kar...

Bəzən çiçəkləyir gələndə bahar
Çöllərin ömürsüz efemerləri.
Rəngi çəhrayıya ya boza çalar,
Canını yaxmamış günəş telləri.

Qayğısız yuxular çəkincə köçün,
Bir qum axınıtək keçincə zaman
Bunu kəşf edirsən sən özün üçün -
Yalnız ruhu ilə zəngindir insan!

***

Anladım ki, qocalıq – ötən illər deyilmiş,
Qalaq-qalaq həsrəti, dərdiymiş gedənlərin.
Ruhları uzaqlaşıb göy üzünə çəkilmiş,
Baxışları seyr edir bizləri, dərin-dərin...

O görünməz gözlərdə elə bir cazibə var -
Vücuduna hopunca titrəyirsən, əsirsən.
Vidalaşmaq yerinə, unutmaqdan zamanla,
Var gücünlə onlarla görüşə tələsirsən...

***

Sahil - qələbəlik, uğuldar, inlər...
Bir vaxtlar sənlə doluydu o da.
Yenə axışmada akvamarinlər...
Səma da seyr edir özünü suda...

...Elə bil yarıda qırıldı sözlər,
Yaxın günlərimiz uzaq qaldılar.
Bir anda qaraldı bütün dənizlər,
Sünii işıqlar haray saldılar.

Ömrün qürubuna gedən günlərim
Solan üfüqlərin qarasındadı.
Sənlə bağlı olan düşüncələrim
İki itgin gəmi arasındadı...

DİLƏNÇİLƏR

Qırılmış şüşələrlə dövrələnmiş hasarlar!
Qara dilənçilərsə yenə zillənib baxar -
Bəlkə, çüncdə-bucaqda
yerə düşən nəsə var?...
Ağzı "içinə batmış" bir qoca gülümsəyər,
Bir oğlan da rəqs edər,
Qayğısız qara köpək quyruğunu bulayar,
Zəhərsiz qoca gürzə yalandan fısıldayar,
Meymuncuğaz
əl açlb insan kimi dilənər...

SƏS

Yalın bir yarğanla keçib gedərsən,
Günün qızmarında mürgüləyərsən...
Bir il ötər bəlkə... Bir gün səhrada,
Səni silkələyər zəif bir səda...

O səsdə dəhşətli qorxu yaşanmış,
O səs görünməyən odlarda yanmış.
O səs dinəndə də, o susanda da,
Məktubda, sözlərdə canlananda da
Qızılı günlərə heyran olurduq,
Qara kölgələri silib qovurduq.

O səs naqillərlə sızıb gəlirdi,
Çaylarda sular da çilvələnirdi.
Otlar təzə-tərdi, səma ağappaq,
Həyat – tükənməzdi, anamızsa sağ...

KƏRPİC

Qalmıram beləcə divar daşıtək!
Bir qumlu sahilə uzanam gərək.

Qoy dəlsin köksümü bozarmış otlar,
Başımın üstdə ki, mavi səma var!

Hamar dalğalar da məni yuyacaq,
Ləpələr üzümü sığallayacaq.

Balıqlar uçacaq çaylara sarı,
Vardır onların da öz arzuları....

Amma ki, yenə də əlçatmazdılar -
Mərmər zirvələrlə, bəyaz buludlar...

Mən – bir qara bulud, zülmətin yarı!
Saldığım: şəhərlər, gül bağçaları.

Pəncərə açıram üzü günəşə,
Bu gün də, sabah da... dünən, həmişə...

Titrəşir üstümdə sarı qamışlar...
Sümüklər torpağı qucaqlamışlar...

Mən heçdən dirildim illərdən bəri,
Qəlbimdə həkk olub mamont izləri.

Mən - Üstyurt çölündə dəli burulğan,
Nəhəng əjdahatək alovdan doğan...

Qırmızı bacalar çatır təndiri,
Çarəsiz... səssizlik tüstüləndirir...

Mən qumam, şəhərlər salınır məndən.
Ordular tapdayıb keçir sinəmdən.

Çəkicəm, alovam, şimşəyəm, odam.
Yollarda çığıram, qaçağan atam.

Bir ocaq külüyəm – keşmişə dönən!
Bir köhlən iziyəm – gələcək günə!

Nə vaxt ki, ilğımlar itər, yox olar -
Susuzluq yanğısı bir yuxu olar.

Karvanlar dizədək sulara batar,
Mənim kiçik şöləm ulduza çatar...

Məni yoğurmağa uzanır əllər,
Çevrəmdə hərlənir qızılı tellər.

Planetlər, uşaqlar dövrə vururlar,
Zamanın hökmünə məhkum olurlar.

Məni yadınızda tutasız gərək
Divar səhfəsində qırmızı hərftək!

Baxıram özümə hər iki üzdən -
Kömürəm, palçığam, həm də daşam mən!

YƏHUDİ QIZI

Gecə... restoranda gülüb danışır
Əlində bir qədəh yəhudi qızı.
Dilində rişxəndlər bir-bir alışır,
Bəzən kinayəylə büzülür ağzı.

Susanda dişi bir qurd kimi baxıb,
Kədərli qürurla zillənir birdən.
Diqqəti cəlb edən bir üzük taxıb...
...Ətri məst eyləyir durduğu yerdən.

Nədir bu baxışlar... yuxusuz, yorgun,
Nə qədər uzaqdır bəşər şərindən!
Salxımıtək şipşirin, "kül" kimi solğun...
Sion dağlarıtək gözəl bir bədən!

Saat kimi dəqiq, öd kimi acı...
Gah siqaret çəkir, gah yemək yeyir.
Hardasa ... müqəddəs bir əl ağacı[1],
Xaç[2] və alışan kol [3]gözümə dəyir.

Nəfəslər qarışıq, fikirlər oyaq...
Səssiz yalvarış var Tanrı lütfünə.
Ya qızıl buğadır[4], ya odlu dayaq[5]...
Gümanlar içində itirik yenə.

---

[1] Mənəvi və cismani hakimiyyət simvolu.
[2] Xristian dini nəzərdə tutulur
[3] Musa peyqəmbərin Tanrıyla söhbəti hekayətindən...
[4] Burada: hərislik və xəsislik simvolu kimi
[5] Hekayətə görə, yəhudilərə gecələr yol göstərən odlu dayaq

EVGENİY ÇİQRİN

Şeirlər

Evqeniy Çiqrin
Şair, publisist, tənqidçi

1961-ci ildə Ukraynada dünyaya gəlib.
Uzun müddət Uzaq Şərqdə yaşayıb yaradıb.
Rusiya Yazarlar birliyinin və Beynəlxalq PEN-klubun üzvü
2006-cı ildə Moskva vilayəti Mədəniyyət nazirliyi tərədindən diplomla,
2007-ci ildə Rusiya Bələdiyyə idarəçiliyi tərəfindən "Humanizmə və Rusiyaya xidmətə görə" medalı ilə təltif olunmuşdur.
"İllərin dumanı arasından" və "Sarban" adlı kitabların müəllifidir.
Yaxın günlərdə
"Yatmayan Buxta" - şeir toplusu nəşr olunub.
Poeziyada postmodernist cərəyana rəğbət bəsləyənlərdəndir.
Əsərləri dünyanın bir çox dillərinə: ispan, polyak, ukrayna dillərinə, o cümlədən də, türkiyə türkcəsinə (Məmməd İsmayıl), azərbaycantürkcəsinə (Afaq Şıxlı) və s... tərcümə olunmuşdur.

ZƏRF

Zərfi açа-açа, xəyallanırsan
Sənə doğma olan duyğular seli...
Nələr düşünürsən, nələr anırsan,
İsidir əlini kiminsə əli.

Beləcə dursan, səssiz, səmirsiz...
Tale yazısının uzaqdır səsi.
Bəzən zəhər kimi, bəzən zəhərsiz -
Qəmli kitabların soyuq nəfəsi.

...Yadına gəncliyin düşür bu anda,
Şərab dumanına bürünür həyat.
Vüsalı sonadək içən zamanda
Nə var unudardıq hər şeyə inad!

Bir beşik yeri də boş qalıb yenə...
Dalğalar ardınca yeni dalğalar...
Elə bil cəlladtək durub qəsdimə
Qara günlərimə şahid qarğalar...

Saçımız tökülür, dən düşür başa!
O gur tellərdən də qalmır əlamət.
Əlimiz boşalır dolduqca yaşa...
Qılıncmı zamanın əlində fürsət?

Naməni bir daha, bir daha oxu!
Unudulub gedir gözdən itənlər...
Tanrının səninlə bir oyunumu
Əlində qalanlar, əldən gedənlər?..

SÜRƏT QATARINDA

Canlı həyatdır keçən pəncərə arxasından,
Bir tənhalıq bürüyüb hasarları, evləri.
Burulan yolların da yapışır yaxasından
Yuxulu söhbətlərin qırıq-sökük xəbəri.

Dünənki günümüzün musiqisi, qüssəsi,
Mənə şeir oxuyan o, dərdli həmsöhbətim.
Necə sadə, necə xoş... doğma idi nəfəsi, -
Qəlbimdə yer almışdı bir ata məhəbbəti.

Hayandasa musiqi susmayırdı bir an da,
Başqa kupedən isə qədəh səsi gəlirdi.
Ulduzlar sayrışaraq zərif sarı dumanda,
Tanrı işığı kimi səmaları dəlirdi.

Həm yuxulu, həm oyaq sükunətin içindən
Bu tıqqıltı ninnitək hisslərimə hopurdu.
Deyəsən lap yaxından, bir vaqonun küncündən
Bir-birinə qarışan qərib səslər qopurdu.

Qaşıq-çəngəl... qədəhlər...
şərab, ya da hər nəsə...
Lətifələr, söyüşlər... adi ara sözləri...
Rəngsiz qatar çayları verib nəfəs-nəfəsə,
Elə bu yollar kimi, yol çəkirdi gözləri.

İçmədim...
bəs nədəndi dumanlandı fikirlər...
Xəbəri kim gətirdi, ey xəbərdən xəbərdar!
Məni məndən aparan bu təzadlı şeirlər!
Mənə dar olan kimi onlara da dünya dar.

Taqqıltısı sarsıdır yerin-göyün bağrını,
Şütüyür, qaranlığı yarır sürət qatarı.
Bəlkə də bu dünyanın söyüb bütün varını,
Yürüyür dayanmadan şənbə gününə sarı.

...İndi nəylə bitirək, tənha insan, tək insan,
Xəyalını geriyə nəydi çəkən görəsən?!
Bu qara dördbucaqla üzə-üzə dayanmısan...
Niyə, nəyin xətrinə? Bəlkə cavab verəsən?

QATILAŞMIŞ RƏNG

Çərşənbə... sonra da cümə axşamı...
Nə olsun... bir kəlmə söz belə yoxdu....
Ay da xatırladır sönükən şamı,
Əriyir duyğular... köz belə yoxdu...

Nə olsun, nə olsun... yazılır şeir,
Göylər işıqlanır öz qaydasıyla...
Dalğın düşüncələr mənə nə deyir,
Bürünüb al-əlvan söz parçasıyla?

Xəyallar, arzular canlanıb yenə...
Bu yer Avropaya meydan oxuyur.
İnanıb başqa bir imana, dinə
Bəxtimə yeni bir qismət toxuyur.

...Geyimi bir ayrı, sevgisi ayrı, -
Ecaskar məhəbbət xiridarları.
Şəkildən elə bil tökülür qanı,
Günəş də meyl edir qüruba sarı.

Başqa bir şəkildə qərib bir ada...
Bir yanda məhəbbət, bir yanda dəniz.
Nə yemək, nə içmək düşməyir yada,
Qatılaşmış rəngə boyanmışıq biz...

Ey rəssam, hardasan, duyursanmı sən?
Bizə cəngi çalır ölümlə həyat!
Yoxdur aramızda qorxudan əsən,
Ruhunu bu soyuq kabusdan oyat!

...Bezdirdi bu qürbət görüntüləri...
Belə əsərlərin yeri - bu küncdü!
Zəif bir şeirin hönkürtüləri
Bir sirk oyunutək bəlkə gülüncdü!

HƏRDƏN BOYLANAN GÜNƏŞ

Tozağacı kölgəsində uzanmışam mən...
Hərdən boylanan Günəşi seyr eləyirəm.
Yaşıl limon ətri ilə dolubdur çəmən,
Səmanın gözəlliyinə şeir deyirəm.

Mavi çiçək dənizində üzürəm sanki,
Ruhum uçur... öz xoşumla sehrlənmişəm.
Xəyalımda ənginliyi gəzirəm sanki,
Qağayıtək maviliyə mehrlənmişəm.

...Hisslərimiz quruyarsa dəryalar kimi,
Məhəbbət də himayəsiz mayaktək sönər.
Gəzdiyimiz torpaqlar da röyalar kimi, -
Xatirəsi bir ötəri dumana dönər.

Bax yenə də, Çexovdan mən gətirib sitat,
Hərdən boylanan Günəşi seyr eləyirəm.
Nuş etdiyim içkilərdən diləyib imdad,
Bu dünyanın gərdişinə şeir deyirəm.

Yarpaqlar da xışıldayır..., nəğmə səsası...
Görmədiyim quşların da duyulur səsi.
Bu sehirli, bu ecaskar sevgi adası
Günahlara sövq eləyir burda hər kəsi...

Yaradan da öz əlimi çəkib üstümdən,
Əvvəlkindən daha artıq yad olub mənə.
İstəmirəm kiməsə də "sag ol" deyim mən!
İstəmirəm min bir səbəb axtarım yenə.

Heç bir şeyə, heç bir kəsə yoxdu təmənnam!
Sahilləri, limanları bürüyüb ahım.
Arzuları ürəyində gömülən canam...
Tək bircə O özü bilir nəydi günahım!

SERGEY KARATOV

Şeirlər

Sergey Fyodoroviç Karatov
Şair, nasir, publisist, tənqidçi

Doğum günü – 26.01.1946.
M. Qorki adına ədəbiyyat institutunun məzunu.
İlk sənəti – müəllimlik.
On bir şeir kitabının müəllifi.
SSRİ Yazarlar birliyinin üzvü (1983)
Moskva Yazarlar birliyinin üzvü
Şeirləri bir çox Avropa dillərinə tərcümə edilib və dünyanın bir çox ölkələrində:
Almaniya, Rumıniya, İzrail, Ukrayna, Vyetnam və s... nəşr olunmuşdur.
Moskvanın tanınmış jurnal və qəzetlərində dərc olunmaqdadır.

ÖMÜRLÜK...

Yenə mən görüşə hazırlanmışam,
Sənsə zamanın yoxmuş gəlməyə...
Aldana-aldana daha yanmışam,
Gəl soyut qəlbimi - "Sevmirəm!" deyə!

Yadların qoynuna tələs o zaman!
Güldürdün üstümə hər kəsi, bəsdi!
Sübh çağı yolumu gözləyər liman,
Bəlkə də bir qatar... Qalmaq əbəsdir!

Qoy məni üzməsin xain xislətin,
Qaçıram, gedirəm ürəyimdə yük!
Özünü aldatmaq çətindir, çətin!
Belə sevməkdənsə, unut ömürlük!

TƏK QOYMAYIN QADINLARI!

Qadınları qoymayın tək!
Tənhalığa dözə-dözə
Sınmasın neyləsin ürək!
Bir gülüşün, bir baxışın
Günahkarı olmasınlar...
Çiçək kimi solmasınlar!

Yalnız qalmaq asan deyil!
Səssiz keçir ömür, həyat...
Hər şey ögey, hər şey boyat...
İçin-gücün caynağında
Xəyallara uçmaq çətin!
Kölgələrdən qaçmaq çətin!

Buraxmayın nəzarətsiz,
Əlinizdə saxlayın siz -
Bir az əsir, bir az azad!
Nəfsiqara nəfəslərdən
Qaralmasın təmiz bir ad!

Gözəl sözlər söyləməyib
Haqqınızı itirəndə,
Kimsə sizin yerinizə
Ona diqqət yetirəndə,
Hər zaman yox, bəzən olur
Andlar, vədlər unudulur...

Nələr olur, nələr, nələr...
Qalmaqallar, məhkəmələr,
Dava-dalaş, umu-küsü,
Ürəklərin üzüntüsü...

Qısqanclığın qəzəbindən
Yaşanmasın bu dərdlər də...
Sevinməsin namərdlər də!
...Həyat qısa, ömür gödək!
Ayırmayın özünüzdən,
Qadınları qoymayın tək!

HÜZÜN

Yarpaq xışıltısı, göyün mavisi -
O mənəm, dəryadı, bir də bu torpaq...
Sirləri, sözləri, yaxşını, pisi
Oxuyub keçirəm mən varaq-varaq...

Zəfər qədəhini çəkərək başa,
Zamanın gözünə baxa bilirəm.
Bəzən daşa dönüb dəysəm də daşa
Kimisə yandırıb yaxa bilirəm.

Yağışda, küləkdə bərkiyirəm mən,
Qəlbim boşalanda gözlərim dolur...
Görürsən çoxalır ömrümdən gedən,
Görürsən qəfildən gələnlər olur...

Fürsət gah dayanır, gah da ki, qaçır,
Hər dəfə bəxtimin dəyişir üzü;
Hərdən pəncərəmi qapayıb açır
Bir əlində sevinc, birində hüzün...

TÜRKİYƏ TÜRKCƏSİNDƏN UYĞUNLAŞDIRMALAR

MUSTAFA BERÇİN

Şeirlər

Mustafa Berçin
Şair, yazıçı

1959-cu ildə Malatya vilayətinin Akçatoprak kəndində anadan olub.
Doğma kəndində orta məktəbi, Ankarada Ticarət və Turizm Ali Məktəbini, Çanaqqala 18 Mart Universitetini bitirib.
Bir müddət pedaqoji fəaliyyətlə məşğul olub.
Hazırda Ali Təhsil Akademiyasında çalışır.
"Akademi Şeir Ailəsi"nin rəhbəridir.

ATAMA MƏKTUBLAR (1)

Torpağın nur olsun, məkanın – cənnət!
Yaşarkən kimsəyə etmədin minnət...
Sənin vəsiyyətin - ən gözəl nemət!
Qoy ruhun olmasın narahat, ata!

O uca evlərin sənsiz qalıbdı,
Quşlar özgə bağda yuva salıbdı.
Ayrılıq üzünü bizdən alıbdı,
Bir oğul ürəyi verib çat, ata!

Çoxları paylaşır bu malı, mülkü,
Biri aslan olur, birisi tülkü.
Nə aldı yanına bizdən əvvəlki?
İstər dünyanı al, istər sat... Ata!

Yaman çox darıxdım, özlədim səni!
Kim qaytara bilmiş köçüb gedəni...
Dönüş yox, o tayda gözlərsən məni,
Bizimdir əbədi bir həyat, ata!

Dünyam qaralıbdı namərd əlindən,
Qurtulmaq çətindi fitnə-felindən.
Bir öyüd istərəm sənin dilindən,
Gəl ovut, yenə də dada çat, ata!

Vaxtım nə qədərdir... bilmirəm daha,
İkicə balam var - ümid sabaha!
Daha sığınmıram amana, aha,
Oğlunun bəxtini sən oyat, ata!

Silmişəm qəlbimdən nifrəti, kini,
Mənə miras qoydun imanı, dini.
Nəfəsim gəldikcə unutmam səni,
Hüzurlar içində rahat yat, ata!

MƏMMƏD İSMAYIL

Şəhriyarın vətənindən bir xoca,
Yasəvidən hikmət alıb doyunca.
Çanaqqala göylərində hər bürcə
Ay-ulduzlu qızıl bayraq olmada,
Şam kimi əriyib özü solmada…

Ruhuna üflənmiş Alp zirvələrdə
İğidtək yaşamaq yaraşır mərdə
Alpərən hər zaman dağdır namərdə
"Sən namərdsən" deyir o gur səsiylə,
Ədalət arayan qurd nəfəsiylə!

Bəs onun qədrini bilməzmi Bakı?
O ki, öz xalqının - türkün üz ağı!
Könüllər sultanı bir Baba Fakı
Xəzərdən Egeyə coşub axmada,
Atdığı hər addım iz buraxmada.

Ümidiyoxların odur güvənci,
Ondan ilham alır neçə Türk gənci
O ki, gecə-gündüz əzmi, dirənci
O könül mülkünə şeir toxuyur,
Oxuyur, oxuyur, bizi oxuyur...

Hər torpaq can verməz Xarıbülbülə
Gül eşqi necədir zar-ı bülbülə?
Bir dile sahibdir, elə bir dilə
Gülün ləçəyində şəbnəm kimidir,
Yanan ürəklərə məlhəm kimidir.

Qarabağda qara bağlar balalar...
Qan tökən canilər dərdə dalalar!
Sənin Haqdan gələn bir şuarın var:
İgid dərdə qalmaz, Məmməd İsmayıl!
Bu qan yerdə qalmaz, Məmməd İsmayıl

BAKIDA AXŞAM

Hörmətli şairə Afaq Şıxlıya

Əsrarəngiz gecələrdə, Bakıda
Bədrlənmiş ay salamlar Xəzəri.
Ona bənzər gözlərinin rəngi də...
İşıq saçar ləpələrin üzəri.

Göy mavisi – Türküyümün nişanı,
Qırmızısı - şəhidimin al qanı.
Yaşıl rəngi təmsil edər İslamı.
Uzaq olsun bədxahların nəzəri.

Aman Xəzər, yaslı Xəzər, can Xəzər!
Sahilində dalğa-dalğa qəm gəzər...
Hüzünlüsən, bayrağından qan sızar!
Qalmayıbdı duaların kəsəri.

Qarabağda üfüqlərin qaralı...
Şair sinəm Xocalıtək yaralı!
Mustafa da düşüb sizdən aralı...
Zəfər yoxsa, od alacaq məzarı!

SƏN, MƏN

Sən azadlıq vermə mənə,
Mən qapının köləsiyəm

Sən bir nursan, doldun cana,
Mən eşqindən öləsiyəm.

Sən varsan ki, dünya da var!
Mən bu sirri biləsiyəm.

Sən özüsən həqiqətin,
Mən bu "özün" çiləsiyəm.

Sən varlığın timsalısan,
Mən varlığın kölgəsiyəm.

Sən əzəlsən, əbədisən,
Mən bir alım nəfəsiyəm.

Sən söylədin, dinləmədim...
Mən Adəmin nəvəsiyəm

Sən yenə də mərhəmət et,
Mən insafa gələsiyəm.

Sən azadlıq vermə mənə,
Mən qapının köləsiyəm.

EŞQİ HƏDƏR EYLƏMƏYƏK!

Eşq bir bulaq kimi çağlar,
Nə əvvəli, nə sonu var.
Dağ başından tökülən qar...
Eşqi hədər eyləməyək!

Ürək susmaz, sevir deyə,
Can qurbandır sevgiliyə.
İncələyə-incələyə
Eşqi hədər eyləməyək!

Sevən könül bəxtəvərdir!
Eşqsiz, ruhun dərbədərdi...
Ömrü kəpənək qədərdir -
Eşqi hədər eyləməyək!

Bu gün, sabah... zaman çox dar,
Faydası yox, etmə inkar.
Sevməyin öz ləzzəti var,
Eşqi hədər eyləməyək!

Söhbət ilə, kəlam ilə
Söyləsən də gəlməz dilə.
Axsın könüldən-könülə,
Eşqi hədər eyləməyək!

O - ilahi müqəddəs ad,
O - uçmağa qoşa qanad!
Nədir küsü, nədir inad?!
Eşqi hədər eyləməyək!

Çox sevib az sevilsək də,
Çarmıxlara çəkilsək də,
Min yol ölüb-dirilsək də
Eşqi hədər eyləməyək!

BİR ULDUZ SEÇ!

Bir ulduz seç, göy üzünə baxaraq,
Uçaq gedək, gəl sənlə oraya.
Birlikdə seyr edək günəşi, ayı,
Bir yuva quraq ki - dönsün saraya.

Kimsələr olmasın, yalnız sən və mən...
Günəş nə tez doğsun, nə batsın erkən.
Rüzgar qayıq olsun, buludlar yelkən,
Qoşulmaq istəyən girsin sıraya.

Uzanıb torpağa, seyrə dalaq, gəl -
Gecə sübhə kimi oyaq qalaq, gəl.
Axan ulduzlardan murad alaq, gəl,
Məlhəm olsun könüldəki yaraya.

Qovuşaq sabaha, səma - ənginlik...
Nə dünənlik deyil, nə də bu günlük...
Nə kasıblıq olsun, nə də zənginlik,
Ehtiyac qalmasın pula-paraya.

Yelləncək quraq gəl, ərşin köksünə,
Saçların sovrulsun, düşsün köksünə.
Rəqs et ulduzlarla, düşüb sehrinə
Pünhan gəzək, gülüm, girmə araya.

Qonşu ulduzları yar-yoldaş eylə,
Qısqanıb üzülsəm, “yalandır!” - sölyə.
Qoy sürsün bu röya, gözəldir böylə...
Nolar, oyandırma, dönməm buraya.

SÖZÜMÜ TUTA BİLMİRƏM...

O, bir sarmaşıqtək tutmuş hər yanı,
Sevdanı könlümdən ata bilmirəm.
İnan, and içirəm minlərcə dəfə,
Heyif ki, sözümü tuta bilmirəm.

Adımı çəkmirsən könlümü açam...
Doymadım mən hələ bu eşqdən, acam.
Tənhayam, qəmliyəm, sənə möhtacam,
Başqa arzularla yata bilmirəm.

Bu sınıq ürəyim qalıbdı naçar...
Ərkim sənə deyil, sözümə keçər.
Öyüd ver, söylə ki, bunlar da keçər!
Küsməklə murada çata bilmirəm.

Bəslənir reyhantək dibçəkdə gülüm,
Göyqurşağı rəngi açır sümbülüm.
"Əlvida" deməyə gəlməyir dilim,
Acıma bir məlhəm qata bilmirəm.

GÜNAH SƏNDƏ DEYİL!

Belə məlul-məlul baxma üzümə,
Günah səndə deyil, yar, səndə deyil!
Mümkün yox deyirdim, gəldin sözümə?
Günah səndə deyil, yar, səndə deyil!

Yanan Kərəmmidir, Əslimi, səncə?
Fərhat sevdalanıb dağlar dəlincə...
Qovuşmaq olmurmuş, demək, sevincə...
Günah səndə deyil, yar, səndə deyil!

Nə səndə bir suç var, nə də ki, məndə...
Bu zaman salıbdır bizləri bəndə.
Tanrı buyurmuşsa, neyləsin bəndə!
Günah səndə deyil, yar, səndə deyil!

Xatırla, köksünə yaslanmağımı,
Bahar yağışında islanmağımı...
Bağışla bu qədər qısqanmağımı...
Günah səndə deyil, yar, səndə deyil!

TƏLƏSMƏ!

Atəş almağamı gəldin dünyaya?
Tələsmə, tələsmə, dostum, tələsmə!
Hər şey zamanında gəlsin araya,
Tələsmə, tələsmə, dostum, tələsmə!

Mavi göy üzünü bir tək nəfəslə,
Al, içinə həbs et, köksündə bəslə.
Qapat gözlərini, bəxtini səslə,
Tələsmə, tələsmə, dostum, tələsmə!

Ölümü anlayan qorxusuz yaşar,
Yağmur yağmamışdan səfehlər qoşar.
Yol dönər, dolaşar, dağlardan aşar,
Tələsmə, tələsmə, dostum, tələsmə!

Əzab keçicidir, döz imtahana!
Qisməti suçlamaq yaraşmaz sana.
Eşqin şərbətini iç yana-yana,
Tələsmə, tələsmə, dostum, tələsmə!

Bəzən Xəzri əsər, bəzən Gilavar...
Başlayar sevdalar, bitər sevdalar...
"Hər şey keçdi" demə, gələcək də var,
Tələsmə, tələsmə, dostum, tələsmə!

SEVDİYİM

Ürəyində düyünlənən bu hüzün
Selə dönüb axacaqmı, sevdiyim?
Ayrılarkən gizlətdiyin gözlərin
Başqasına baxacaqmı, sevdiyim?

Xoşbəxtsənmi, acıların dindimi?
Bu ayrılıq ürəyinə sindimi?
O kükrəyən vulkanların söndümü?
Məni bir də yaxacaqmı, sevdiyim?

Məni qırma "səhv elədik" – deməklə,
Günahkaram sənə könül verməklə?
Eşq bağına gül əkmişdik əməklə
Dərən döşə taxacaqmı, sevdiyim?

Bir başqası baxacaqmı üzünə,
Yatacaqmı baş qoyaraq dizinə?
Asta-asta vurub könül sazına
Sənə şeir qoşacaqmı, sevdiyim?

Dərd eləmə, həyatını xoş yaşa!
Ömür qısa, qəm-kədərsiz vur başa!
Qəlbim səndə, istəyirsən çal daşa!
Görən heyfin çıxacaqmı, sevdiyim?

İNCİYƏCƏKSƏN

Yolumuz yoxuşa gedir əzəldən,
Fərqimiz qalmamış quru xəzəldən.
Məktubun çağırır məni bir əldən...
“Gəlmirəm” söyləsəm inciyəcəksən.

Baxışın bir başqa, dilin bir başqa,
Məhbusdu, nə vaxtdı, könül bu eşqə.
Bir dəfə üzümüz güləydi, keşkə...[6]
“Gülmürəm” söyləsəm inciyəcəksən.

Bir ülvi məhəbbət - dünya varıdır,
Qısqanmaq - nifrətin bəd həmkarıdı.
Sorsan “bu sevdalı kimin yarıdır?”
“Bilmirəm” söyləsəm inciyəcəksən.

Son bahar yox oldun, aldın başını...
Gileyli sənmisən? Çatma qaşını!
Gözlərindən axan acı yaşını
“Silmirəm” söyləsəm inciyəcəksən.

“Dağ dağa qovuşmaz” - belədir yenə!
Mənimlə bir olmaq yükdürmü sənə?
Salamlar göndərsən, yar, gendən-genə,
“Almıram” söyləsəm inciyəcəksən.

[6] Kaş ki...

ÇOXDAN BURAXMIŞAM PEŞİNİ, DÜNYA!

İtirən üzülməz, tapan sevinməz,
İtə atsam, yeməz leşini, dünya!
Gəlmişdim, gedirəm... sanma ki, sevdim,
Çoxdan buraxmışam peşini, dünya!

Kimini xərcləyib pula çevirdin,
Kimini ağladıb dula çevirdin.
Tamahı olanı külə çevirdin,
Sən də tutacaqsan başını, dünya!

Üzə dur fələklə, dön arsız-arsız!
Əcəlin çatınca qalasan yarsız!
Son anda peşmanlıq duyman yararsız,
Bir gün bitirirlər işini, dünya!

BAĞÇAMDA
QARTOPU OYNAYAN UŞAQ

Bağçamda qartopu oynayan uşaq
Əlləri buz olmuş... xəbəri yoxdur.
Ürəyi sevincdən qaynayan uşaq
Zamanı unutmuş... xəbəri yoxdur.

Bilirəm, qardan da bəyaz ürəyi...
Andırır günahsız məsum mələyi,
İncəcik sevimli bir kəpənəyi...
Yanağı allanmış... xəbəri yoxdur.

Papağı, atqısı yana burulmuş,
Atlanıb tullanıb düşüb yorulmuş...
Qəlbi də, ruhu da Haqqdan durulmuş,
Şeytana daş atmış... xəbəri yoxdur.

Gözəldir, bu qarla əkizdi sanki!
Ona qibtə etdim, sevdim inan ki!
Həyat elə sirli, elə pünhan ki,
Gör nələr yaşatmış... xəbəri yoxdur.

İNTİZAR

Səni saralıb sol bir yarpaq kimi -
Hardan gəldiyini bilə də bilmə!
Bahar mövsümündə çoşğun sel kimi
Axsın göz yaşların, silə də bilmə!

Əl aç axşam-səhər, ölümü dilə!
Səndən üz çevirsin qardaşın belə!
Elə iztirabla, sürünmək ilə
Keçsin bütün ömrün, ölə də bilmə!

Tökülsün dişlərin, bükülsün belin,
Möhtac ol birinə, titrəsin əlin!
Görməsin gözlərin, tutulsun dilin,
Bəxtin üz çevirsin, gülə də bilmə!

GÖZLƏR

Dərdini dərində gizli saxlayıb,
Duyğusal anlarda coşub çağlayıb,
Həsrət yollarına baxıb ağlayıb
Süzülər gözümün içinə gözlər.

Yenə də çıxmaza çıxıb yollarım,
Gündüzkən qaralıb ağım-allarım.
Sarar sarmaşıqtək səni qollarım,
Taxar saçlarının meçinə[7], gözlər.

Darıx, dərdin alım, dur gəl yanıma,
Şirin bir nəşə qat qəmli anıma.
Əl ver, ələ vermə! Qıyma canıma!
Öldürmə heçnəyin heçinə, gözlər.

Eşqindən başqa nə kəsər ağrımı?
Görəsən yolları mənə doğrumu?
Kirpiyi ox olar, dələr bağrımı,
Baxar usanmadan Berçinə gözlər!

[7] Burada: saçdan ayrılmış tel mənasında.

ÇİLƏN DƏ GÖZƏL!

Gecələr yuxumu alıb gözümdən,
Məni bu möhnətə salan da gözəl!
Yağmurlar sel olub axır üzümdən,
Gözümün yaşını silən də gözəl!

Ay saxlar dərdini dağ arxasında,
Ulduzlar sayrışar ağ çuxasında.
Bir busə qoymuşam sağ yaxasında,
Sevdama alışıb gələn də gözəl!

Vurğunam həyata sənin xətrinə,
Yağışdan sonrakı torpaq ətrinə.
Yazdığım şeirin hər bir sətrinə
Yazıram: "Ey gözəl, çilən də gözəl!"

YARIMA YETİR

Bir gülü öpərək atdım dənizə,
Dedim ki, qarşıda yarıma yetir.
Əgər onu qoxlar, gülərsə üzü
Onda, al qoynuna, yanıma gətir.

Xumar baxan gözlər sevgi doludur,
Yarıma gedən yol - haqqın yoludur.
Mən rüzgar, o isə sabah yelidir,
Yanan ürəyimi o sərinlədir.

Yanağı məxmərdir, saçları ipək,
Dağlar dumanıdır başında örpək.
Kimsə sevə bilməz onu mənimtək,
Bir eşq çiçəyidir, köksümdə bitir.

ƏLİNƏ DÜŞDÜ

Azərbaycan gözəlinə!

Bir gözəl sevəndən, elimdən uzaq,
Sevdam aşıqların dilinə düşdü.
Aldı ürəyimi məndən Qarabağ,
Gözüm bir nazənin gəlinə düşdü.

Gözümdən uzaqdı, könlümə yaxın!
Bitməz ki, həsrəti... Qəm axın-axın!
Mənə tuş eylədi məhəbbət oxun,
Ahım kəmənd oldu, belinə düşdü.

Çağlama, ey Xəzər, dərdim oyanar!
Kükrəyib çoşaram - rüzgar dayanar.
Xarı bülbül desəm, ürəyim yanar
Vətənim yağılar əlinə düşdü.

Çıxıb Ağrı dağa dumana batsam,
O Cıdır düzündə, çöllərdə yatsam!
Tutarmı əlimi, yara uzatsam?
Günəşin səfəqi telinə düşdü.

Əriyib getsə də dağların qarı
Silmədi könlümdən qəmi, əfkarı…
Bu qanın, davanın iti rüzgarı
Qoca Şəhriyarın elinə düşdü!

Tutqun xəyallarım üfüqdə buzlar...
Qəlbim bu həsrətdən sızlar ha, sızlar!
Nədən kədərlidir elimdə qızlar, -
Bəxtləri ayrılıq selinə düşdü?!

TORPAQ VƏ SU

Sən torpaqsan, mənsə suyam,
Sel axıram sənin üçün.
Can çıxsa da elə buyam,
Lal baxıram sənin üçün.

Dərd köksümdə dəstələnir,
Arzularım üstələnir,
Gönlümdə söz bəstələnir,
Hey oxuram sənin üçün.

Ömrümə gəl, seç əlimi,
Tutma belə gec, əlimi.
Uzaqlaşdır əcəlimi,
Çox qorxuram, sənin üçün.

İnad etmə, olma belə,
"Sevirəm" de, bitsin çilə.
Şimşək olub bilə-bilə
Mən çaxıram sənin üçün.

Bir arzum var – sənə gəlmək,
Yollarına çisələnmək;
Vüsalımı ilmək-ilmək
Bax, toxuram sənin üçün.

KƏDƏRİ SİLMƏZ...

Gönül hüzünlüysə, nazlanan yarın
Hüsnü-gözəlliyi kədəri silməz.
Məhəbbət könüldən könülə axar,
Sevməyən nadanlar sirrini bilməz.

Həsrət güc gəlincə, köşk çölə dönər,
Bülbül fəğan edər, eşq gülə dönər.
Ürəyə od düşsə, yaş selə dönər...
Mustafanın üzü vüsalsız gülməz.

MƏNİM BULUDLARIM HÜZÜNLƏ DOLMUŞ

Mənim buludlarım hüzünlə dolmuş,
Göz yaşı axıdır yar olan yerə.
Yığışıb sellənib ümmana dönmüş...
Nolardı, "sevirəm" desə bir kərə!

Mənim buludlarım yoldaşdır yelə,
Bülbültək aşiqdir bir qızılgülə.
Sevən ürək üçün atəşdir çilə -
Yaxar bu dünyada, qoymaz məhşərə.

Mənim buludlarım susar, çağlamaz...
Sevdaya düşməyən, ürək dağlamaz.
Bozarar, qaralar, amma ağlamaz,
Baş əyməz zülümə, nə də qədərə.

Mənim buludlarım dağlara həmdəm,
Enməz, yağsa belə qəm üstünə qəm.
Bu sevgi mirasdır sizlərə məndən,
Vəfasız kim olsa, düşsün kədərə!

DURNALARIN QANADINA

Məktub taxdım mən, köçəri
Durnaların qanadına.
Sevən könül vaz keçərmi,
Sevər həsrət inadına.

Məktubumun ucu yandı,
Yar tüstünü atəş sandı.
Halbuki, qovrulan candı,
Qulaq verməz fəryadına.

Möhür vurdum qanım ilə,
Göz yaşlarım döndü selə.
O yar elə bilə-bilə
Baxmır yazanın adına.

Bilirəm ki, məni anır,
Sızlayaram - nəğmə sanır.
Bir "hə" deyər, sonra danır,
Kimsə yetmir muradına...

GEDİŞ O GEDİŞ...

O ayın sonuydu, bu ayın başı...
“Yoruldum” demişdin... gediş o gediş...
Nəmli gözlərinlə, yar, vidalaşıb
“Yoruldum” demişdin... gediş o gediş...

Könül həzz almasa dilin suçu nə?!
Bülbül oxumazsa gülün suçu nə?!
Atıb ürəyimi odun içinə
“Vuruldum” demişdin... gediş o gediş...

İndi yenə o ay, günlərdən bazar,
Yaram sağalmamış... hələ qan sızar.
Fələk qismətimə başqa nə yazar?
“Qırıldım” demişdin... gediş o gediş...

“Unutdum” söyləsəm dodağım yanar,
Adın anıldıqca ürəyim qanar.
Heç sevən insan da eşqini danar?
“Darıldım” demişdin... gediş o gediş...

Gün doğarmı daha bizim xanəyə?
Könül dönmüş artıq bir viranəyə.
“Dön!” deyə söylənən bir bəhanəyə
“Yoruldum” demişdin... gediş o gediş...

GƏLƏRƏM

Mənə “gəl!” demənə gərək varmı ki?
Mən könül səsini duyub gələrəm!
Göz yanıla bilər, dil çaşa bilər,
Hissimə, duyğuma uyub gələrəm!

Aramızda əngəl dağmı, təpəmi?
Eşq səddəmi baxar, əsarətəmi?
Ölüm deyilən şey bundan ötəmi?
Tənimi qanımla yuyub gələrəm!

Gülüm, qüdrətlidi eşqin göz yaşı,
Damla-damla düşsə əridər daşı!
Sənin xatirinə zəhərli aşı
Yeyərəm, canımdan doyub gələrəm!

SƏRDAR AKKOÇ

Şeirlər

Sərdar Akkoç (Hanceri)
Şair

1980-ci ildə Kütahya Altıntaşda dünyaya gəlib. İbtidai təhsilini Balıkesirdə almış, litsey və ali təhsilini isə Çanaqqalada tamamlamışdır. Çanaqqala 18 mart universitetinin (COMU) müəllimlik bölümünün məzunudur. Hazırda Çanaqqalada yaşayır. Türk dünyası şair və yazarlarının səs bayrağı sayılan Akademi Şeir Ailəsi Mədəniyyət və Ədəbiyyat Dərnəyinin sədr müavinidir. Ədəbiyyat fəaliyyəti təşkilatçılarından biridir.

ALƏMSƏNMİ, NAZLI YAR?

Mən and içib sənə, aman eylədim...
Ələmsənmi, nazlı yar?
Sözlərini ürəyimə teylədim...
Çiləmsənmi, nazlı yar?

Səndən öncə görən hansı fəsildi?
Aləmsənmi, nazlı yar?
Göbəyimiz bərabərmi kəsildi?
Bəlamsanmı, nazlı yar?

Sənmi məni, mənmi səni yaratdım?
Balamsanmı, nazlı yar?
Sən keçdiyin torpaqlara iz atdım?
Silamsanmı[8], nazlı yar?

Son sözümdə, son duamda yenə sən!
Salamsanmı, nazlı yar?
Məzaradək bərabərik deyəsən...
Bəlamsanmı, nazlı yar?

[8] Həsrətində olduğun, səndən uzaqda olan yurd-yuva, vətən

KÜLƏ DÖNDÜM

Qara gözlüm, ayrılalı
Külə döndüm, külə döndüm.
Öz budağından aralı
Gülə döndüm, gülə döndüm.

Baxışından doymaq çətin,
Öldürəcək məhəbbətin.
Göylərə yetdi həsrətin
Yelə döndüm, yelə döndüm.

Baş qoyaydım dizlərinə,
Hey baxaydım gözlərinə.
Sindim ayaq izlərinə
Çölə döndüm, çölə döndüm.

Qapınıza hörgün idim,
Yollarında sürgün idim.
Çilə dolu bir gün idim...
İlə döndüm, ilə döndüm.

Yar, qəflətdən sən də oyan!
Mənim sevdam elə ayan...
Hey ismini hecalayan
Dilə döndüm, dilə döndüm.

Dərdim seldi - çoşub daşan...
Əski məndən yoxdu nişan.
Bəxtim - rüzgar, bir pərişan
Telə döndüm, telə döndüm.

QAL, MƏNDƏN SONRA!

Mən ölüncə, yadlar taxar taçını,
Dünyanı başına çal, məndən sonra!
Kordan belə qısqandığım saçını
Rüzgarlar önünə sal, məndən sonra!

Xal olub qalaydım üzündə sənin,
Sellərə dönəydim gözündə sənin.
Dünyatək fanisən özün də sənin!
Vəfasız aləmdə qal, məndən sonra!

Təbəssüm olmasın dodaqlarında,
Küləklər dolaşsın gül bağlarında.
Yarpaqlar qurusun budaqlarında,
Arılar verməsin bal, məndən sonra!

Tənhalıq əlindən titrəsin canın,
Yay günü buz tutsun elə dörd yanın.
Sabahlar olmasın bir xoruz banın,
Lal olsun gecələr, lal, məndən sonra!

Gözlərində kədər, nəfəsində ah...,
Hər telin ucundan sallansın günah.
Mənim həsrətimlə yan axşam-sabah,
Elə boynu bükük qal, məndən sonra!

Ağılar duyulsun sənin dilindən,
Məzarım döşənsin siyah telindən.
Sevgimin nişanı düşsun əlindən...
Ölümdən intiqam al, məndən sonra!

Akkoçluyam, miras qoydum sızımı,
Saçlarınla bağlasınlar ağzımı.
Yar, əmanət eyləyirəm sazımı,
Yanıqlı mahnılar çal, məndən sonra.
Dünyanı başına çal, məndən sonra!

GÖZ DASTANI

Yüz illərdir aşiqlər gözlərə söz yazdılar...
Mənim də məzarımı gözlərində qazdılar...

Meh deyildi gözlərə, nur ya da ay deyildi,
Gözlərin kölgəsində qəlbim sənə yenildi.

Qaşlarım – gül budağı, yarpağı saralmasın!
Yumma o gözlərini – kainat qaralmasın!

Sehirli kirpiklərin mənə nələr anladar...
Gözlərinin işığı Qüdsü də aydınladar.

Uca Tanrım, ürəyim gözlərinləmi vurdu?
Görsəydi bu gözləri, Məcnun da kor olurdu.

Sultan Fateh olsaydım, buraxmazdım əlini,
Dünyaya dəyişməzdim saçının bir telini.

Gözlərinə möhtacam, İsa kimi qəribəm,
O gözlər baş tacımsa Süleymandan zənginəm.

Qaşların bir məhkəmə, baxışın ifadəmdi,
Göz yaşların axar su, gözlərin səccadəmdi.

Haqq verdim qatillərə, nədən qatıl oldular –
Gözlərinə həsrətlə baxanları vurdular.

Gözlərinsiz neylərəm? Ürək gedər, can gedər...
Göz yaşının damlası qırğın edər, qan edər.

Bəbəyinin şöləsi məni saldı düzlərə,
Ölərsəm cəsədimi gömsünlər o gözlərə.

Gözlərin fincan kimi, baxışın bir dəryadı,
Kəbə dualarıdı o gözlərin fəryadı.

Nur parçası bəbəyin – təsbehimin daşıdır,
Tabutumun örtüsü, məzarımın başıdır.

Gözlərimin rəngini yaşıla boyamışlar,
Kirpiyinin oxunu alnıma dayamışlar.

Gözlərin dibçək olsa, içində qəfil ölüm, -
Ölümü "şərbət" deyə başa çəkərəm, gülüm!

...Və çalındı qapılar, ölüm önümə durdu,
Əzrayıla nə gərək? Məni gözlərin vurdu!

HASİBƏ KAYA

Şeirlər

Hasibə Kaya
Şair, müəllim, radio aparıcı

Türkiyə "Akademi Şeir ailəsinin üzvü.
1954-cü ildə Çanaqqalanın Çan şəhərində Asmalı deyilən qəsəbədə dünyaya gəlmişdir.
Çan şəhərində orta məktəbi, sonra isə Edirnədə müəllimlik məktəbini bitirmişdir.
1972-ci ildən Çanakkalada orta məktəblərdə, ən son "Kepez Mehmet Akif Ersoy" adına ibtidai məktəbdə müəllimə işləmişdir.
Bunlarla yanaşı, "Radyo Işıl Fm net" radiosunda aparıcı kimi çalışmışdır.
Əbəbiyyatı və poeziyanı, oxuduğu orta məktəbin ədəbiyyat müəllimi - şair Erdal Sezginin sayəsində sevmişdir.
Həyatının mənası və dayağı hesab etdiyi iki oğlu və iki nəvəsi var.
Çoxsaylı şeirlərin və hekayələrin müəllifidir.
Hazırda təqaüdçüdür.

DAHA NECƏ SEVMƏLİYDİM?

Əzbər etdim dodağımda ismini,
Ürəyimə nəqş eylədim rəsmini,
Həyatıma yoldaş etdim mən səni,
Daha necə sevməliydim, sevgilim?

Uzun-uzun yollar keçdim uğruna,
Sipər oldum hər acına, ağrına.
Ürəyimi verdim, basdın bağrına,
Daha necə sevməliydim, sevgilim?

Xəyalda da sənlə gəzdim hər yanı,
Gözlərinlə görər oldum dünyanı.
Əllərinə təslim etdim bu canı,
Daha necə sevməliydim, sevgilim?

Eşqi başa tac eylədim, "yox" dedin,
"Məni çox sev!
Hər bir kəsdən çox!" - dedin.
Bəs nə oldu, "Ürəyimdən çıx" dedin,
Daha necə sevməliydim, sevgilim?

Şimşək olub həstərinlə çaxardım,
Dərya olub sənə sarı axardım -
Min bənd olsa, min sədd olsa yıxardım,
Daha necə sevməliydim, sevgilim?

Yetməyincə sənə doğru gələrdim,
Sənəm olub səni Qərib bilərdim.
Leylin olub yollarında ölərdim,
Daha necə sevməliydim, sevgilim?

Xəyalların gözlərimdə canlanır,
Düşününcə yanaqlarım allanır.
Dualarım yenə sənə yollanır,
Daha necə sevməliydim, sevgilim?

Çox istədim, hisslərimi biləsən, -
Bülbül oldun hər çiçəyə, gülə sən...
Sevgi nədir - anlamadın hələ sən!
Daha necə sevməliydim, sevgilim?
Səni necə sevməliydim, sevgilim!

AYRILIQ

O səni düşünmək ki var,
Səni düşünmək... uzun gecələri,
Qaranlıqlara sarılmaq,
Sən deyə qucaqlamaq kölgələri...

O səni gözləmək ki var,
Sabahlaradək yuxusuz gözləmək,
Ayaq səslərini, qapı qıcırtılarını
Min dəfə dinləyib, min dəfə ölmək...

O səni gizləmək ki var,
Quşlardan, çiçəklərdən belə qısqanmaq,
Sevərək, səni sevərək
Küləkdən, yağışdan bu eşqə sığınıb saxlanmaq...

O sənsiz darıxmaq ki var,
Tellərindən, dodaqlarından ötrü darıxmaq,
Yenə də əl-ələ bərabər olmaq,
Mavi gözlərinə doya-doya baxmaq...

...Və səndən ayrılmaq ki var,
Yenicə tapmışkən itirmək,
Çağırsam da duymaz olduğun zamanlar
Tənha günləri ard-arda ötürmək...
Bax, onlardır məni yaxan, yıxan və solduran.
Sevgi bitdiyində,
Yalnızca Ayrılıqla baş-başa qalır insan...

OSMAN ÖZTUNÇ
ŞAH ZeMAHŞER

Şeirlər

Osman Süleyman oğlu Öztunç (Şah Zemahşer)
Ozan, şair, bəstəçi.
1968-ci il 23 apreldə Tokatda (Çamlıbel) dünyaya gəlmişdir.
Dədə Qorqudun, Şeyx Əhmət Yavevinin, Mövlananın dəyərlərilə böyümüşdür.
Osman Öztunç bir üsyançı ozandır.
Yaxın zamanlarda, internet TVlərdən birində Dəli-dolu proqramı düzənləyərək, müxalifətçi. Milli və mənəvi mənada könülləri zəbt etməkdədir.
Heç zaman siyasətin içində olmamış, amma siyasətçilər onu özlərilə xalq arasında bir körpü sanarak gözdən qoymamişlar.
Osman Öztunca ZEMAHŞER adının, yuxusunda verildiyi iddia olunur.
Türkiyənin, demək olar ki, hər yerində, eləcə də Avropa ölkələrinin bir çoxunda möhtəşəm konsertlər vermişdir.
Şeyh Əhmet Yasevinin, Mövlananın, Yunusun, Pir Sultan, Qayğısız Abdalın, Hüseyin Nihal Atsızın, Arif Nihat Asyanın əsərlərini bəstələyib oxuyur. Öz əsərlərini bir çox ünlü sənətçinin istəməsinə rəğmən, yalnız sənətə yeni gələn gənclərə tövsiyyə etmişdir. Bunlardan: Mustafa Uğur, Şemsimah Şener, Benhur, Arif Nazım, Cavit Karabey və s...
Parisdə Eyfel qülləsində Azan oxuyan ilk müsəlmandır.
Bir şeirdə iki-üç şeir üslubu cəm olan ZeMAHŞER nəzm forması ilk dəfə Zemahşer Osman Öztunç tərəfindən düşünülmüşdür.

SƏN OLMASAN!

Yar, qəhrinə düşməsəydim, ahu-fəğan etməzdim!
Qərib-qərib ağlamazdım, yaşımda sən olmasan!
Bu yaranı deşməsəydim, külə dönüb itməzdim,
Sellər kimi çağlamazdım, düşümdə[9] sən olmasan!

Eşqin hüzurunda durub, önündə baş əyməzdim,
Varlığı yoxluğa vurub, könüllərə dəyməzdim.
Həsrətimə xəncər sürüb, acılardan doymazdım,
Ciyərimi dağlamazdım, qışımda sən olmasan!

Kimin ömrü uzun, qısa..., həqiqəti bilərmi?
Əsli-nəsli yaman olsa mərifəti bilərmi?
Şah ZeMahşer əsir qalsa, yaşayarmı, ölərmi?
Qaraları bağlamazdım, başımda sən olmasan!

[9] Burada, xəyal mənasında.

OLARAM!

Qoy məni bürüsün acı, yel dəysin gülə,
Sən küsmə, canımın içi, çağlar süslənsin.
Məncə ürək dondurucu, yağan qar ilə,
Bağrı qara qış olaram, dağlar süslənsin.

Buyur boz dağlara, alış, cuşa gələrək,
Dillənsin çöllərdə yağış, haqqa uyaraq.
Sən əlində yalın qılınc, Allah deyərək,
Mən kötükdə baş olaram, göylər səslənsin.

Vazkeçək umudan-küsdən, canlar darılır,
Yan almayaq bir həvəsdən, könül qırılır.
Ocağında küldən, hisdən keçir, durulur
Sən atəş mən daş olaram, sağlar dərs alsın.

Şah ZeMahşeri şah edən - şahların əsli!
Ayrı durarmı cümlədən, nuhların nəsli?
Qürbət eldə sən ölsən, mən - ürəyi yaslı,
Seltək axan yaş olaram, bayraq islansın!

BAXDIM, BAXDI

Baxdım camalına, aymı, günəşmi?
Baxdı sanki şimşək çaxtı üzümə.
Baxdım sultanlara, şahlara eşmi[10]
Baxdı sanki nurlar taxdı üzümə.

Baxdım hicabından üzü al oldu,
Baxdı məndə bir qəribə hal oldu.
Baxdım sanki Araz susdu, lal oldu,
Baxdı birdən güllər düşdü közümə.

Baxdım düşəcəkdir cənnətə Vildan,
Baxdı gözəl idi lalədən, güldən.
Baxdım o başqadı mənimtək quldan,
Baxdı dərman etdi könül sızıma.

Baxdım elə bil ki, aləm ağlaşdı,
Baxdı mərcan-mərcan, gün sazaqlaşdı.
Baxdım gah yanaşdı, gah uzaqlaşdı,
Baxdı ZeMahşerəm, güldü sazıma.

[10] Burada, tay mənasında

CAN TÜRKİYE TÜRKLƏRİNDİR – CAHAN BİLƏCƏK BİZİ!

Türkəm, türkçə çalar sazım,
Türkün səsi haqdadır.
Can Türkiyə türklərindir!
Cahan biləcək bizi!
Türkəm tükənməz avazım,
bu hay-haray göydədir,
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

Laz da mənəm, çərkəz də mən;
nə özgə, nə ayrıyam.
Mən hərkəsəm, hərkəs də mən!
Birlik üçün çağrıyam.
Üsyan etmək nəyə lazım,
müsəlmanam – doğruyam!
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

Kürdü Türkdən ayıranlar,
hesab günü yaxındı!
O-bu deyə ayıranlar,
düşmən axın-axındı.
Qanla qarın doyuranlar,
bu nə nifrət, nə kindi?
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

Sünnü də bir, Qızılbaş da!
Bu Vətən, bu yurd bizim!
Qardaşımdır hər savaşda –
sevinc bizim, dərd bizim!
Yerdə, göydə, daşda, daşda
aslan bizim, qurd bizim!
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

Tokatlı ararsa məni
şöhrət ilə, şan ilə,
Edirnədən Qarsa məni,
gələrsə iman ilə,
Kəfən olub sarsa məni,
bağrımdakı qan ilə,
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

ZeMahşer!
Hayqır, ZeMahşer!
ZeMahşer, Vətən üçün!
Əsarəti qır, ZeMahşer,
ozan olmaqdır suçun!
Türklük ruhudur ZeMahşer,
yerdə qalmasın öçün,
Can Türkiyə Türklərindir!
Cahan biləcək bizi!

Afaq ŞIXLI

YEDDİDƏN 1-İ Bədii tərcümələr

Ön söz müəllifi:
Dr. İsaxan İsaxanlı

Redaktor:
Pr. Məmməd İsmayıl
Elman Tovuz

Texniki redaktor:
Korrektor:
Elman Tovuz
Nilufər A. Şıxlı

Dizayner:
Elman Tovuz